AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

# SOSİAL, İQTİSADİ İNKİŞAF

1

YANVAR

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

**Xüsusi işarələr:**

"-" hadisə baş verməmişdir

"..." məlumat mövcud deyil

"0,0" məlumat çox kiçik rəqəmlə xarakterizə olunur

"x" müqayisə mümkün deyil

**İzahlar:**

-cari ilə dair məlumatlar növbəti dəqiqləşdirilmiş statistik hesabatlar əsasında sonrakı nəşrlərdə korrektə edilə bilər

-bəzi hallarda yekunla toplananların cəmi arasındakı fərq rəqəmlərin yuvarlaqlaşdırılması ilə izah olunur

-bu nəşrdə əvvəlki dövrlərə dair məlumatlarla əvvəlki nəşrlərdə həmin dövrlərə aid məlumatlar arasındakı bəzi fərqlər beynəlxalq praktikaya uyğun olaraq yekun statistik hesabatlar əsasında ilkin məlumatlarda aparılmış dəqiqləşdirmələrlə izah olunur

# M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| **I** | **MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR** | **5** |
| | **2026-cı ilin yanvar ayında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri** | **5** |
| **II** | **REAL SEKTOR** | |
| | Ümumi daxili məhsul | 12 |
| | Sənaye | 15 |
| | Tikinti | 38 |
| | Kənd təsərrüfatı | 43 |
| | Nəqliyyat | 47 |
| | İnformasiya və rabitə | 52 |
| | İstehlak bazarı | 53 |
| | Əmtəə bazarı | 54 |
| | İctimai iaşə xidmətləri | 61 |
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | 63 |
| | Qiymət indeksləri | 67 |
| | Kredit qoyuluşları | 82 |
| | Qiymətli kagızlar bazarı | 84 |
| | Məşğulluq və işsizlik | 85 |
| | Yeni iş yerləri | 88 |
| **III** | **DÖVLƏT SEKTORU** | |
| | Dövlət büdcəsi | 91 |
| **IV** | **XARİCİ SEKTOR** | |
| | Xarici ticarət | 96 |
| **V** | **SOSİAL SEKTOR** | |
| | Əhalinin gəlirləri | 105 |
| | Əməkhaqqı | 106 |
| | Əhalinin əmanətləri və manatın məzənnəsi | 107 |
| | Hüquqpozmalar | 109 |
| | Demoqrafik vəziyyət | 114 |
| | **İqtisadi rayonlar** | 121 |
| | **Metodoloji izahlar** | **179** |

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 1**
**20 fevral 2026-cı il**

## 2026-cı İLİN YANVAR AYINDA ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2026-cı ilin yanvar ayında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 9,1 milyard manatlıq və ya əvvəlki ilin yanvar ayı ilə müqayisədə 1,7 faiz çox **ümumi daxili məhsul** istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər istehsalı 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 2,3 faiz artmışdır.

Əlavə dəyərin 33,9 faizi sənaye, 11,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi tikinti, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,2 faizi informasiya və rabitə sahələrində, 23,4 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 11,7 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 884,5 manata bərabər olmuşdur.

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2026-cı ilin yanvar ayında 4,7 milyard manatlıq və ya əvvəlki ilin yanvar ayı ilə müqayisədə 2,5 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 1,4 faiz, qeyri neft-qaz sektorunda isə 8,7 faiz artmışdır.

Sənaye məhsulunun 56,4 faizi mədənçıxarma sektorunda, 35,2 faizi emal sektorunda, 7,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1,0 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 2,3 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 8,7 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 2,8 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 2,1 dəfə, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 92,7 faiz, elektrik avadanlıqlarının istehsalı 53,2 faiz, tikinti materiallarının istehsalı 39,3 faiz, tütün məmulatlarının istehsalı 37,4 faiz, kağız və karton istehsalı 26,1 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 20,3 faiz, poliqrafiya məhsullarının istehsalı 8,2 faiz, geyim istehsalı 3,9 faiz artmış, mebel istehsalı 0,3 faiz, qida məhsullarının istehsalı 0,6 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 3,9 faiz, içkilərin istehsalı 6,4 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 6,7 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 6,7 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 6,7 faiz, maşın və avadanlıqların istehsalı 10,8 faiz, neft məhsullarının istehsalı 16,4 faiz, kimya sənayesi məhsullarının istehsalı 21,2 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 26,7 faiz, hazır metal məmulatlarının istehsalı 28,5 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 2,9 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 5,7 faiz azalmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 fevral 2026-cı il vəziyyətinə 968,0 milyon manatlıq hazır məhsul olmuşdur.

**Kənd təsərrüfatında** 2026-cı ilin yanvar ayında diri çəkidə 47,5 min ton ət, 158,9 min ton süd, 182,8 milyon ədəd yumurta və 27,0 min ton tərəvəz istehsal olunmuşdur. 2025-ci ilin yanvar ayı ilə müqayisədə tərəvəz istehsalı 5,6 faiz, ət istehsalı 0,4 faiz artmış, süd istehsalı 0,5 faiz, yumurta istehsalı 5,7 faiz azalmışdır.

2025-ci ilin yanvar ayı ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 0,1 faiz, o cümlədən bitkiçilik məhsulları

istehsalı 5,6 faiz artmış, heyvandarlıq məhsulları istehsalı 0,3 faiz azalmışdır.

2026-cı ilin yanvar ayında **əsas kapitala** 1405,9 milyon manat məbləğində, yaxud əvvəlki ilin yanvar ayı ilə müqayisədə 75,6 faiz çox investisiya yönəldilmişdir. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 78,3 faiz, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 73,9 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 758,6 milyon manatı və ya 54,0 faizi məhsul istehsalı sahələrinə, 551,0 milyon manatı (39,2 faizi) xidmət sahələrinə, 96,3 milyon manatı (6,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 1004,0 milyon manatını və ya 71,4 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 577,2 milyon manatı və ya 41,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2026-cı ilin yanvar ayında 18,3 milyon ton **yük** və 167,8 milyon **sərnişin** daşınmışdır. 2025-ci ilin yanvar ayı ilə müqayisədə yük daşınması 0,4 faiz azalmış, sərnişin daşınması isə 6,8 faiz artmışdır. Yüklərin 59,0 faizi avtomobil, 30,6 faizi boru kəməri, 6,7 faizi dəmir yolu, 3,6 faizi dəniz, 0,1 faizi isə hava nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin 88,8 faizi avtomobil, 10,5 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən göstərilmiş 316,1 milyon manatlıq xidmətlərin 67,4 faizi əhali sektoruna aid olmuşdur. 2026-cı ilin yanvar ayında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi əvvəlki ilin yanvar ayı ilə müqayisədə 10,0 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 84,1 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

2026-cı ilin yanvar ayında **pərakəndə ticarət** şəbəkəsində əhaliyə 5292,5 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 1264,1 milyon manatlıq **ödənişli xidmət** göstərilmişdir. 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 3,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən

əldə olunan gəlir 7,6 faiz artmış, ticarət şəbəkəsində 2859,2 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 2433,3 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2025-ci ildə ölkənin **xarici ticarət** dövriyyəsi 48905,8 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 24526,1 milyon dollarını və ya 50,1 faizini ölkədən ixrac olunmuş məhsulların, 24379,7 milyon dollarını (49,9 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 146,4 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2024-cü illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 3,2 faiz artmış, real ifadədə isə 8,6 faiz, o cümlədən idxal 8,5 faiz, ixrac 8,7 faiz azalmışdır.

2025-ci ildə qeyri neft-qaz məhsullarının ixracı 3628,2 milyon dollar təşkil etmiş və 2024-cü ilə nisbətən faktiki qiymətlərlə 8,1 faiz artmış, real ifadədə isə 18,1 faiz azalmışdır.

2026-cı ilin yanvar ayında **istehlak qiymətləri indeksi** 2025-ci ilin yanvar ayı ilə müqayisədə 105,7 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 107,1 faiz, qeyri-qida malları üzrə 103,5 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 105,6 faiz təşkil etmişdir.

2025-ci ilin ilkin məlumatlarına əsasən muzdlu işçilərin **orta aylıq nominal əməkhaqqı** 2024-cü ilə nisbətən 9,3 faiz artaraq 1102,9 manat təşkil etmişdir.

2026-cı ilin yanvar ayında **əhalinin gəlirləri** nominal ifadədə 2025-ci ilin yanvar ayı ilə müqayisədə 8,6 faiz artaraq 6,5 milyard manat olmuşdur.

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2026-cı ilin yanvar ayında dövlət büdcəsinə 3707,3 milyon manat vəsait daxil olmuş, büdcədən 1437,6 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında 2269,7 milyon manatlıq profisit yaranmışdır.

Mərkəzi Bankın məlumatlarına görə, 2026-cı il yanvar ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının **kredit**

**portfeli** milli valyuta ekvivalentində 31946,7 milyon manat təşkil etmiş, onun 26160,5 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 1,6 faizini təşkil etmişdir.

Əhalinin banklardakı **əmanətlərinin** milli valyuta ekvivalentində məbləği 2026-cı il yanvar ayının 1-nə 16772,4 milyon manat olmuşdur.

2026-cı ilin yanvar ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə **orta məzənnəsi** 1,70 manata, 1 Avroya – 2,00 manata, 100 Türk lirəsinə – 3,94 manata, 100 Rusiya rubluna – 2,18 manata bərabər olmuşdur.

2025-ci ilin yanvar-dekabr aylarında **əhalinin sayı** 37462 nəfər və ya 0,4 faiz artaraq 2026-cı il yanvar ayının 1-i vəziyyətinə 10262351 nəfərə çatmışdır.

Cədvəl 1

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2026-cı ilin yanvar ayı, faktiki | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə | Məlumat üçün 2025-ci ilin yanvar ayı 2024-cü ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **9 078,7** | **101,7** | **99,1** |
| o cümlədən qeyri neft-qaz ÜDM | 6 544,8 | 102,3 | 101,0 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **884,5** | **101,3** | **98,7** |
| **Sənaye məhsulu, milyon manat** | **4 715,8** | **102,5** | **97,4** |
| o cümlədən qeyri neft-qaz sənayesi | 1 769,2 | 108,7 | 109,9 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **1 405,9** | **175,6** | **50,0** |
| o cümlədən qeyri neft-qaz sektoruna | 834,4 | 173,9 | 45,2 |
| ondan qeyri neft-qaz sənayesinə | 81,5 | 65,8 | 370,8 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **582,6** | **100,1** | **102,2** |
| o cümlədən: bitkiçilik | 32,8 | 105,6 | 120,8 |
| heyvandarlıq | 549,8 | 99,7 | 101,3 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **18,3** | **99,6** | **105,5** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **167,8** | **106,8** | **107,9** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **316,1** | **110,0** | **105,8** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **5 292,5** | **103,7** | **103,7** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **1 264,1** | **107,6** | **108,5** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **3 707,3** | **91,5** | **116,9** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **1 437,6** | **61,4** | **135,7** |
| **Dövlət büdcəsinin profisiti, milyon manat** | **2 269,7** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **6 478,2** | **108,6** | **106,2** |
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **631,2** | **108,2** | **105,7** |
| **Əhalinin banklardakı əmanətləri, 2026-cı il 01 yanvar vəziyyətinə, milyon manat** | **16 772,4** | **114,4** | **113,2** |

...ardı

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Kredit qoyuluşları, 2026-cı il 01 yanvar vəziyyətinə, milyon manat** | **31 946,7** | **109,1** | **122,1** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 524,5 | 116,8 | 102,6 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **1 102,9*** | **109,3**** | **108,1***** |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **105,7** | **105,4** |
| **Əhalinin sayı, 2026-cı il 01 yanvar vəziyyətinə, min nəfər** | **10 262,4** | **100,4** | **100,4** |
| **Xarici ticarət dövriyyəsi[1], milyon ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **48 905,8*** | **103,2**** | **101,3***** |
| **müqayisəli qiymətlərlə** | **x** | **91,4**** | **96,5***** |
| o cümlədən: **ixrac** | | | |
| faktiki qiymətlərlə | 24 526,1* | 93,1** | 89,3*** |
| müqayisəli qiymətlərlə | x | 91,3** | 92,6*** |
| ondan **qeyri neft-qaz ixracı** | | | |
| faktiki qiymətlərlə | 3 628,2* | 108,1** | 100,3*** |
| müqayisəli qiymətlərlə | x | 81,9** | 87,0*** |
| **idxal** | | | |
| faktiki qiymətlərlə | 24 379,7* | 115,8** | 121,8*** |
| müqayisəli qiymətlərlə | x | 91,5** | 103,1*** |

**Qeyd:**

* 2025-ci il.

** 2025-ci il 2024-cü ilə nisbətən.

*** 2024-cü il 2023-cü ilə nisbətən.

[1] Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

## Ümumi Daxili Məhsul istehsalı

2026-cı ilin yanvar ayında ölkədə 9078,7 milyon manatlıq və ya əvvəlki ilin yanvar ayı ilə müqayisədə 1,7 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 2,3 faiz artmışdır.

ÜDM istehsalının 33,9 faizi sənaye, 11,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi tikinti, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,2 faizi informasiya və rabitə sahələrinin, 23,4 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 11,7 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 884,5 manata bərabər olmuşdur.

Cədvəl 2

## Ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar | | Əvvəlki ilin müvafiq ayına nisbətən, müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|---|
| | 2026 | 2025*) | |
| **Ümumi Daxili Məhsul** | **9078,7** | **9371,0** | **101,7** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 303,0 | 284,8 | 100,1 |
| Sənaye | 3075,5 | 3753,4 | 102,6 |
| o cümlədən: mədənçıxarma sənayesi | 2314,4 | 2958,2 | 102,6 |
| emal sənayesi | 594,4 | 630,9 | 104,3 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 145,8 | 143,0 | 97,1 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 20,9 | 21,3 | 94,3 |
| Tikinti | 324,9 | 379,9 | 84,1 |
| Ticarət: nəqliyyat vasitələrinin təmiri | 1062,2 | 971,8 | 103,7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 706,7 | 640,1 | 104,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 218,7 | 190,4 | 108,7 |
| İnformasiya və rabitə | 204,2 | 182,2 | 110,0 |
| Digər sahələr | 2125,3 | 1951,4 | 101,0 |
| **Məhsula və idxala xalis vergilər** | **1058,2** | **1017,0** | **100,1** |

*) 2025-ci ilin yanvar ayının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Cədvəl 3

## Neft-qaz və qeyri neft-qaz sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar | | Əvvəlki ilin müvafiq ayına nisbətən, müqayisəli qiymətlərlə, faizlə |
|---|---|---|---|
| | 2026 | 2025*) | |
| **Ümumi Daxili Məhsul** | **9078,7** | **9371,0** | **101,7** |
| o cümlədən: | | | |
| neft-qaz sektoru | 2533,9 | 3315,3 | 100,6 |
| qeyri neft-qaz sektoru | 6544,8 | 6055,7 | 102,3 |

*) 2025-ci ilin yanvar ayının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1



# Sənaye

2026-cı ilin yanvar ayında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 4,7 milyard manatlıq və ya 2025-ci ilin müvafiq ayı ilə müqayisədə 2,5 faiz çox sənaye məhsulu istehsal edilmiş, məhsul istehsalı neft-qaz sektorunda 1,4 faiz, qeyri neft-qaz sektorunda isə 8,7 faiz artmışdır.

Sənaye məhsulunun 56,4 faizi mədənçıxarma, 35,2 faizi emal, 7,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,0 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 80,3 faiz olmuşdur. Ümumi istehsalın 85,9 faizi sənaye məhsullarının istehsalı, 14,1 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

**Sənaye istehsalı indeksləri,**
sabit qiymətlərlə, faizlə

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| **2025-ci il** | | |
| Yanvar | 97,4 | 97,4 |
| Yanvar-fevral | 94,5 | 98,1 |
| Yanvar-mart | 90,7 | 97,3 |
| Yanvar-aprel | 94,5 | 97,8 |
| Yavar-may | 114,0 | 98,4 |
| Yanvar-iyun | 93,2 | 98,1 |
| Yanvar-iyul | 105,5 | 97,7 |
| Yanvar-avqust | 101,3 | 98,8 |
| Yanvar-sentyabr | 94,8 | 99,0 |
| Yanvar-oktyabr | 97,3 | 98,8 |
| Yanvar-noyabr | 98,2 | 98,9 |
| Yanvar-dekabr | 123,8 | 99,0 |
| **2026-cı il** | | |
| Yanvar | 99,4 | 102,5 |

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 fevral 2026-cı il vəziyyətinə 968,0 milyon manatlıq hazır məhsul olmuşdur.

Ehtiyatların 44,6 faizi Bakı, 12,4 faizi Sumqayıt, 2,5 faizi Gəncə, 0,7 faizi Şirvan şəhərlərinin, 1,6 faizi Naxçıvan Muxtar Respublikasının, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 81,6 milyon manat məbləğində digər məhsullar da mövcud olmuşdur.

## Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 2,7 milyard manat olmaqla, əvvəlki ilin müvafiq ayına nisbətən 2,4 faiz artmışdır.

Cədvəl 5

**Mədənçıxarma sənayesi üzrə istehsalın həcmi**

| Fəaliyyət növlərinin adı | 2026-ci ilin yanvar ayında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq ayına nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| **Mədənçıxarma sənayesi** | **2657,9** | **102,4** |
| Xam neft və təbii qaz hasilatı | 2312,3 | 101,8 |
| Metal filizlərinin hasilatı | 94,2 | 140,7 |
| Mədənçıxarma sənayesinin digər sahələri | 15,5 | 68,2 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | 235,9 | 112,6 |

Sahənin əsas məhsulu olan əmtəəlik neft hasilatı 2,2 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 3,4 milyard kub metr təşkil etmişdir. Əmtəəlik neft hasilatı əvvəlki illə müqayisədə 2,3 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 8,7 faiz artmışdır.

Cədvəl 6

## Mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsullar

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2026-cı il vəziyyətinə sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 2252,4 | 97,6 | 245,7 |
| ondan əmtəəlik | 2247,9 | 97,7 | 245,7 |
| Təbii qaz, milyon kub metr | 4274,2 | 107,4 | - |
| ondan əmtəəlik | 3382,0 | 108,7 | - |
| **Metal filizlərinin hasilatı** | | | |
| Mis konsentratı, ton | 1337,5 | 6,1 d. | 2938,2 |
| Gümüş, kq | 329,8 | 87,8 | 550,4 |
| Qızıl, kq | 207,8 | 88,0 | 103,6 |
| **Mədənçıxarma sənayesinin digər məhsulları** | | | |
| İnşaat üçün əhəng daşı, min ton | 35,7 | 108,2 | - |
| Gips və anhidrit, min ton | 27,3 | 53,4 | 53,4 |
| Tikinti qumu, min ton | 60,8 | 46,6 | 13,2 |
| Çınqıl, qırmadaş, xırda çay daşı və çaxmaq daşı, min ton | 351,2 | 137,3 | 117,9 |
| Bentonit, min ton | 14,5 | 59,9 | 240,4 |
| Duz, ton | 9185,8 | 125,5 | - |

Qrafik 2

**Neft və qaz hasilatının aylar üzrə dinamikası**




## Emal sənayesi

Emal sənayesində 2026-cı ilin yanvar ayında 1661,7 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Cədvəl 7

**Emal sənayesində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2025-ci il** | | |
| Yanvar | 110,3 | 104,4 |
| Yanvar-fevral | 106,6 | 103,4 |
| Yanvar-mart | 98,6 | 100,5 |
| Yanvar-aprel | 100,0 | 103,4 |
| Yanvar-may | 102,6 | 105,4 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| Yanvar-iyun | 103,4 | 105,1 |
| Yanvar-iyul | 103,4 | 104,2 |
| Yanvar-avqust | 102,7 | 103,7 |
| Yanvar-sentyabr | 103,3 | 104,2 |
| Yanvar-oktyabr | 103,7 | 104,6 |
| Yanvar-noyabr | 106,0 | 104,8 |
| Yanvar-dekabr | 107,9 | 105,8 |
| **2026-cı il** | | |
| Yanvar | 104,3 | 112,4 |

Qrafik 3

**Emal sənayesi üzrə istehsal indeksinin dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 8

## Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə |
|---|---|---|
| **Emal sənayesi –cəmi** | **1661,7** | **104,3** |
| o cümlədən: qida məhsullarının istehsalı | 478,9 | 99,4 |
| içki istehsalı | 57,1 | 93,6 |
| tütün məmulatlarının istehsalı | 83,0 | 137,4 |
| toxuculuq sənayesi | 59,9 | 120,3 |
| geyim istehsalı | 19,8 | 103,9 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 1,4 | 93,3 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 3,4 | 73,3 |
| kağız və karton istehsalı | 25,1 | 126,1 |
| poliqrafiya məhsullarının istehsalı | 11,4 | 108,2 |
| neft məhsullarının istehsalı | 398,3 | 83,6 |
| kimya sənayesi | 102,3 | 78,8 |
| əczaçılıq məhsullarının istehsalı | 2,3 | 2,8 d. |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 37,3 | 93,3 |
| tikinti materiallarının istehsalı | 117,8 | 139,3 |
| metallurgiya sənayesi | 73,9 | 96,1 |
| hazır metal məmulatlarının istehsalı | 30,8 | 71,5 |
| kompüter, elektron və optik məhsulların istehsalı | 5,6 | 93,3 |
| elektrik avadanlıqlarının istehsalı | 17,3 | 153,2 |
| maşın və avadanlıqların istehsalı | 20,0 | 89,2 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 18,2 | 212 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 3,4 | 3,2 d. |
| mebellərin istehsalı | 26,3 | 99,7 |
| zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı | 8,5 | 197,4 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 59,7 | 192,7 |

Əvvəlki ilin müvafiq ayı ilə müqayisədə tütün məmulatlarının istehsalı 37,4 faiz artmış, qida məhsullarının istehsalında 0,6 faiz, içki istehsalında isə 6,4 faiz azalma müşahidə olunmuşdur.

Bu sahələrin əsas məhsullarından duru bitki yağlarının istehsalı 15,6 faiz, siqaretlərin istehsalı 38,1 faiz, pivə istehsalı isə 3,6 faiz artmışdır.

Cədvəl 9

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Qida məhsullarının istehsalı | İçki istehsalı | Tütün məmulatlarının istehsalı |
| **2025-ci il** | | | |
| Yanvar | 124,7 | 126,0 | 64,5 |
| Yanvar-fevral | 110,7 | 105,4 | 74,6 |
| Yanvra-mart | 112,2 | 99,1 | 96,9 |
| Yanvar-aprel | 112,5 | 104,0 | 103,4 |
| Yanvar-may | 109,4 | 105,6 | 104,9 |
| Yanvar-iyun | 112,0 | 102,4 | 106,7 |
| Yanvar-iyul | 110,6 | 98,8 | 108,1 |
| Yanvar-avqust | 110,8 | 99,6 | 108,0 |
| Yanvar-sentyabr | 110,5 | 97,0 | 109,5 |
| Yanvar-oktyabr | 109,5 | 98,2 | 111,2 |
| Yanvar-noyabr | 109,8 | 98,4 | 113,2 |
| Yanvar-dekabr | 109,1 | 100,5 | 114,4 |
| **2026-cı il** | | | |
| Yanvar | 99,4 | 93,6 | 137,4 |

Qrafik 4

**Qida məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 10

## Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2026-cı il vəziyyətinə sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Qida məhsulları** | | | |
| Kolbasa məmulatları, ton | 2599,7 | 105,9 | 19,0 |
| Meyvə şirələri, min dkl | 219,6 | 55,5 | 782,0 |
| Meyvə-tərəvəz konservləri, ton | 11433,5 | 91,8 | 21906,3 |
| Duru bitki yağları, ton | 4576,6 | 115,6 | 2430,3 |
| Marqarin, ton | 3700,6 | 71,5 | 3582,8 |
| Qaymaq, xama, ton | 873,0 | 114,0 | 1,3 |
| Kərə yağı, ton | 1904,4 | 86,8 | 74,2 |
| Pendir və kəsmik, ton | 4231,8 | 97,3 | 16,6 |
| Unlu qənnadı məmulatlar, ton | 6067,4 | 104,8 | 798,5 |

…ardı

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2026-cı il vəziyyətinə sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Makaron məmulatları, ton | 1016,6 | 85,2 | 122,4 |
| Şəkər, qənd, min ton | 8,7 | 38,0 | 15,7 |
| Şəkərli qənnadı məmulatları, ton | 778,0 | 135,8 | 88,7 |
| Çay, ton | 750,2 | 103,3 | 74,0 |
| Qida duzu, min ton | 6,4 | 88,9 | 2,0 |
| **İçki məhsulları** | | | |
| Alkoqolsuz içkilər, min dkl | 2811,6 | 97,4 | 703,7 |
| Şirinləşdirilməmiş sular, min dkl | 2110,1 | 118,3 | 945,1 |
| Viski, brendi, min dkl | 57,1 | 85,2 | 395,5 |
| Üzüm şərabı, min dkl | 41,0 | 80,7 | 631,7 |
| Araq, min dkl | 105,1 | 89,4 | 189,5 |
| Pivə, min dkl | 287,2 | 103,6 | 292,3 |
| **Tütün məmulatları** | | | |
| Siqaretlər, milyon ədəd | 1194,0 | 138,1 | 1264,1 |
| Tütün, ton | 49,9 | 33,2 | 150,4 |

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı** sahələrində 81,1 milyon manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar ayı ilə müqayisədə toxuculuq sənayesində 20,3 faiz, geyim istehsalında 3,9 faiz artım, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında isə 6,7 faiz azalma müşahidə olunmuşdur. 2025-ci ildə dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahəsi üzrə emal edilmiş dəri istehsalı 57,1 faiz azalmışdır.

Cədvəl 11

## Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| | | **2025-ci il** | |
| Yanvar | 139,2 | 56,7 | 112,2 |
| Yanvar-fevral | 121,8 | 60,2 | 147,0 |
| Yanvar-mart | 115,6 | 54,7 | 123,7 |
| Yanvar-aprel | 118,7 | 57,2 | 120,1 |
| Yanvar-may | 126,8 | 52,3 | 85,9 |
| Yanvar-iyun | 129,7 | 58,3 | 98,7 |
| Yanvar-iyul | 127,5 | 61,7 | 79,7 |
| Yanvar-avqust | 129,0 | 79,2 | 77,9 |
| Yanvar-sentyabr | 127,6 | 86,4 | 79,9 |
| Yanvar-oktyabr | 126,1 | 90,8 | 81,4 |
| Yanvar-noyabr | 127,1 | 80,0 | 80,1 |
| Yanvar-dekabr | 124,5 | 84,9 | 84,8 |
| **2026-cı il** | | | |
| Yanvar | 120,3 | 103,9 | 93,3 |

Cədvəl 12

## Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2026-cı il vəziyyətinə sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Toxuculuq məhsulları** | | | |
| Pambıq mahlıcı, ton | 17253,1 | 111,4 | 42392,7 |
| Pambıq ipliyi, ton | 2126,2 | 152,7 | 5316,1 |
| Pambıq parçalar, min kv.m | 2710,0 | 103,5 | 538,4 |
| Pambıq yataq ağları, min ədəd | 12,5 | 114,7 | 59,4 |
| Xalça və xalça məmulatları, min kv.m | 0,4 | 133,3 | 5,0 |
| **Geyim istehsalı** | | | |
| Üst geyim, min ədəd | 87,5 | 113,2 | 65,5 |
| İstehsalat və peşə komplektləri, min ədəd | 81,9 | 60,8 | 9,7 |
| Alt geyim, min ədəd | 155,9 | 172,6 | 63,3 |
| Sair geyim, min ədəd | 688,5 | 152,1 | 625,7 |
| Corab məmulatları, min cüt | 429,7 | 386,4 | 7,1 |
| **Dəri və dəridən məmulatlar, ayaqqabılar** | | | |
| Emal edilmiş dəri, min kv.m | 0,3 | 42,9 | 137,9 |
| Ayaqqabı, min cüt | 75,2 | 172,5 | 128,6 |

**Neft məhsullarının istehsalı** sahəsində istehsalın ümumi dəyəri 398,3 milyon manat olmaqla, əvvəlki ilin yanvar ayı ilə müqayisədə 16,4 faiz azalmışdır. Neft məhsullarından neft koksunun istehsalı 9,1 faiz artmış, qazoylların (dizel yanacağının) istehsalı 14,4 faiz, ağ neft istehsalı 22,6 faiz, neft bitumu istehsalı 65,8 faiz, mazut istehsalı isə 67,8 faiz azalmışdır.

Cədvəl 13

**Neft məhsullarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2026-cı il vəziyyətinə sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Avtomobil benzini, min ton | 114,9 | 92,7 | 65,7 |
| Ağ neft, min ton | 47,5 | 77,4 | 24,6 |
| Qazoyllar (dizel yanacağı), min ton | 193,4 | 85,6 | 175,4 |
| Mazut, min ton | 5,8 | 32,2 | 5,1 |
| Sürtkü yağları, min ton | 2,3 | 67,6 | 1,1 |
| Maye qazlar, min ton | 16,8 | - | 2,7 |
| Neft koksu; neft bitumu və neft məhsullarının digər qalıqları, min ton | 42,9 | 64,2 | 57,0 |
| ondan: neft bitumu, min ton | 6,9 | 34,2 | 17,9 |
| neft koksu, min ton | 19,2 | 109,1 | 38,5 |

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı** sahələrində 141,9 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar ayı ilə müqayisədə əczaçılıq məhsullarının istehsalı 2,8 dəfə artmış, rezin və plastik kütlə məmulatlarının istehsalı 6,7 faiz, kimya sənayesi məhsullarının istehsalı isə 21,2 faiz azalmışdır.

Kimya sənayesi məhsullarından polietilen istehsalı 21,1 faiz, etilen istehsalı 23,7 faiz, rezin və plastik kütlə məmulatlarından plastmas çubuqlar, millər və profillər 17,6 faiz, polietilendən kisə və çantalar isə 26,6 faiz azalmışdır.

Cədvəl 14

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Kimya sənayesi | Əczaçılıq məhsullarının istehsalı | Rezin və plastik kütlə məmulatlarının istehsalı |
| **2025-ci il** | | | |
| Yanvar | 135,9 | 69,8 | 96,3 |
| Yanvar-fevral | 111,4 | 121,4 | 96,4 |
| Yanvar-mart | 101,9 | 143,3 | 98,2 |
| Yanvar-aprel | 107,1 | 154,4 | 102,3 |
| Yanvar-may | 113,1 | 184,9 | 104,7 |
| Yanvar-iyun | 111,7 | 195,2 | 104,4 |
| Yanvar-iyul | 110,7 | 181,3 | 105,3 |
| Yanvar-avqust | 108,4 | 193,5 | 106,1 |
| Yanvar-sentyabr | 105,6 | 196,8 | 109,7 |
| Yanvar-oktyabr | 108,4 | 2,0 d. | 112,6 |
| Yanvar-noyabr | 108,7 | 194,9 | 113,7 |
| Yanvar-dekabr | 105,2 | 186,3 | 116,1 |
| **2026-cı il** | | | |
| Yanvar | 78,8 | 2,8 d. | 93,3 |

Qrafik 5

## Kimya sənayesi məhsullarının istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 15

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2026-cı il vəziyyətinə sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi məhsulları** | | | |
| Təsirsiz qazlar, min kub metr | 3716,8 | 102,7 | 102,4 |
| ondan azot, min kub metr | 1912,7 | 102,9 | 99,0 |
| Lak-boya məmulatları, ton | 2735,2 | 114,9 | 333,8 |
| Qeyri-üzvi kimyəvi maddələr, ton | 3710,0 | 185,5 | 5600,0 |
| ondan yod, ton | 15,5 | 100,0 | 5,3 |
| Üzvi kimyəvi maddələr, min ton | 31,1 | 38,9 | 52,2 |
| ondan: etilen, min ton | 11,9 | 76,3 | 0,8 |
| propen (propilen), min ton | 12,0 | 87,0 | 0,6 |
| metanol (metil spirti), min ton | - | - | 25,5 |
| Etil spirti, min dkl | - | - | 27,0 |
| Gübrə və azot birləşmələri, min ton | 42,9 | 70,1 | 43,0 |
| ondan karbamid, min ton | 42,9 | 70,1 | 43,0 |
| İlkin formada plastik kütlə, min ton | 24,2 | 84,0 | 41,6 |
| ondan polietilen, min ton | 11,2 | 78,9 | 12,5 |
| Yapışqan və yapışdırıcı maddələr, min ton | 10,1 | 63,1 | 10,4 |
| **Əczaçılıq məhsullarının istehsalı** | | | |
| Dərmanlar, min manat | 1050,8 | 270,3 | 569,0 |
| Tibbi maskalar, milyon ədəd | 0,8 | 133,3 | 0,7 |
| **Rezin və plastik kütlə məmulatlarının istehsalı** | | | |
| Plastmas çubuqlar, millər və profillər, ton | 688,0 | 82,4 | - |
| Sərt plastmasdan borular, borucuqlar, qolçaqlar və şlanqlar, ton | 2988,0 | 100,7 | 2130,8 |

…ardı

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2026-cı il vəziyyətinə sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Polietilendən kisə və çantalar, ton | 880.8 | 73,4 | 414,5 |
| Plastmas butulkalar, flakonlar və oxşar məmulatlar, min ədəd | 13771,9 | 123,7 | 21762,1 |
| Polietilendən başqa, digər plastmas kisələr və çantalar, ton | 832,9 | 3,3 d. | 284,1 |
| Döşəmə, divar və tavan üçün plastik kütlədən rulon və ya plitka şəklində örtük, min kv. metr | 89,7 | 4,3 d. | - |
| Digər plastmasdan tikinti məmulatları, ton | 104,7 | 28,6 | 107,8 |
| Məsaməli plastik kütlədən sair plastinlər, lövhələr, ton | 194,1 | 74,1 | 32,3 |

**Tikinti materiallarının istehsalı** sahəsində 2026-cı ilin yanvar ayında istehsalın ümumi dəyəri 117,8 milyon manat olmaqla, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 39,3 faiz artmışdır. Ay ərzində asfalt istehsalı 2,1 dəfə, əhəng istehsalı 40,0 faiz, betondan yığma tikinti konstruksiyalarının istehsalı 28,9 faiz, sement klinkerlərinin istehsalı isə 13,7 faiz artmışdır.

Qrafik 6

**Tikinti materiallarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 16

**Tikinti materiallarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2026-cı il vəziyyətinə sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Tikinti şüşəsi, min kv. metr | 843,6 | 108,3 | 1944,9 |
| Tikinti kərpicləri, min kub metr | 40,8 | 70,8 | 23,0 |
| Sement klinkerləri, min ton | 395,5 | 113,7 | 371,9 |
| Sement, min ton | 329,9 | 100,3 | 267,7 |
| Əhəng, min ton | 2,8 | 140,0 | 3,6 |
| Gips məmulatlar, min ton | 1,7 | 24,3 | 2,5 |
| ondan tikinti gipsi, min ton | 1,0 | 14,9 | 1,8 |
| Sementdən, betondan kərpiclər və oxşar məmulatlar, min ton | 4,4 | 37,0 | 17,1 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub metr | 4,9 | 128,9 | - |
| Beton, min ton | 281,0 | 79,1 | - |
| Asfalt, min ton | 5,2 | 2,1 d. | - |

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** sahələrində 2026-cı ilin yanvar ayında 104,7 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə metallurgiya sənayesi məhsullarının istehsalında 3,9 faiz, hazır metal məmulatlarının istehsalı sahəsində isə 28,5 faiz azalma müşahidə olunmuşdur. 2026-cı ilin yanvar ayında metallurgiya sənayesi üzrə armatur istehsalı 14,9 faiz, polad tökmə istehsalı 34,0 faiz, hazır metal məmulatlarının istehsalı sahəsi üzrə metaldan sair məmulatların istehsalı isə 60,6 faiz azalmışdır.

Cədvəl 17

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2025-ci il** | | |
| Yanvar | 95,8 | 126,2 |
| Yanvar-fevral | 94,1 | 91,0 |
| Yanvar-mart | 92,0 | 81,9 |
| Yanvar-aprel | 83,3 | 87,3 |
| Yanvar-may | 87,1 | 90,4 |
| Yanvar-iyun | 87,6 | 96,4 |
| Yanvar-iyul | 88,0 | 89,6 |
| Yanvar-avqust | 87,7 | 87,3 |
| Yanvar-sentyabr | 88,3 | 91,3 |
| Yanvar-oktyabr | 87,1 | 90,0 |
| Yanvar-noyabr | 91,4 | 90,3 |
| Yanvar-dekabr | 96,9 | 83,0 |
| **2026-cı il** | | |
| Yanvar | 96,1 | 71,5 |

Cədvəl 18

## Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2026-cı il vəziyyətinə sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metallurgiya sənayesi məhsulları** | | | |
| Polad tökmə, min ton | 19,6 | 66,0 | 8,3 |
| Armatur, min ton | 30,3 | 85,1 | 15,9 |
| Polad borular, min ton | 11,7 | 84,2 | 5,1 |
| Emal edilməmiş qurğuşun, alüminium, sink, nikel və s., min ton | 2,0 | 105,3 | 3,2 |
| Alüminium məmulatları, ton | 5955,0 | 128,3 | 4344,1 |
| Mis məftil, ton | 35,8 | - | - |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Metaldan konstruksiyalar, ton | 1099,6 | 51,4 | 10840,6 |
| İzolyasiyası olmayan çoxnaqilli məftil, troslar və oxşar məmulatlar, ton | 789,4 | 120,1 | 8,4 |
| Metaldan sair məmulatlar, ton | 626,6 | 39,4 | 6,9 |

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı** sahələrində 2026-cı ilin yanvar ayında 22,9 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə kompüter, elektron və optik məhsulların istehsalı 6,7 faiz azalmış, elektrik avadanlıqlarının istehsalı isə 53,2 faiz artmışdır. Ay ərzində əvvəlki ilin yanvar ayı ilə müqayisədə kompüter, elektron və optik məhsulların istehsalı sahəsi üzrə noutbukların istehsalı 94,2 faiz azalmış, elektrik avadanlıqlarının istehsalı sahəsi üzrə elektrik tənzimləyici cihazların istehsalı 2,1 dəfə artmışdır.

Cədvəl 19

## Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompüter, elektron və optik məhsulların istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| **2025-ci il** | | |
| Yanvar | 96,4 | 120,6 |
| Yanvar-fevral | 127,8 | 105,2 |
| Yanvar-mart | 131,4 | 97,6 |
| Yanvar-aprel | 106,3 | 94,6 |
| Yanvar-may | 92,2 | 103,6 |
| Yanvar-iyun | 84,3 | 99,3 |
| Yanvar-iyul | 80,0 | 87,8 |
| Yanvar-avqust | 70,9 | 86,2 |
| Yanvar-sentyabr | 73,3 | 85,6 |
| Yanvar-oktyabr | 198,4 | 88,4 |
| Yanvar-noyabr | 149,9 | 88,8 |
| Yanvar-dekabr | 102,8 | 80,5 |
| **2026-cı il** | | |
| Yanvar | 93,3 | 153,2 |

Cədvəl 20

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2026-cı il vəziyyətinə sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kompüter, elektron və optik məhsulların istehsalı** | | | |
| Noutbuklar, ədəd | 32 | 5,8 | - |
| Stolüstü kompüterlər, ədəd | 20 | 7,7 | - |
| Ölçmə cihazları, min ədəd | 41,9 | 105,0 | - |
| **Elektrik avadanlıqlarının istehsalı** | | | |
| Güc transformatorları, ədəd | 8 | 19,0 | - |
| Elektrik tənzimləyici cihazlar, ədəd | 381 | 2,1 d. | - |
| Digər elektrik naqilləri, ton | 902,2 | 105,4 | 430,2 |
| Məişət soyuducuları və dondurucuları, ədəd | - | - | 5 |

**Maşın və avadanlıqların, avtomobil, qoşqu və yarımqoşquların istehsalı** sahələrində 2026-cı ilin yanvar ayında 38,2 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə avtomobil, qoşqu və yarımqoşquların istehsalı isə 2,1 dəfə artmış, maşın və avadanlıqların istehsalı 10,8 faiz azalmışdır. 2026-cı ilin yanvar ayında 402 ədəd və ya əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 167 ədəd çox minik avtomobili istehsal olunmuşdur. Ay ərzində əvvəlki ilin müvafiq ayı ilə müqayisədə yük avtomobillərinin istehsalı 7,0 dəfə artmışdır.

Cədvəl 21

## Maşın və avadanlıqların, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Maşın və avadanlıqların istehsalı | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı |
| **2025-ci il** | | |
| Yanvar | 47,4 | 79,3 |
| Yanvar-fevral | 122,4 | 64,9 |
| Yanvar-mart | 120,9 | 103,1 |
| Yanvar-aprel | 126,6 | 96,1 |
| Yanvar-may | 107,7 | 87,0 |
| Yanvar-iyun | 103,5 | 90,5 |
| Yanvar-iyul | 110,6 | 87,3 |
| Yanvar-avqust | 100,7 | 75,2 |
| Yanvar-sentyabr | 106,5 | 75,1 |
| Yanvar-oktyabr | 98,8 | 77,5 |
| Yanvar-noyabr | 91,3 | 66,1 |
| Yanvar-dekabr | 83,7 | 59,7 |
| **2026-cı il** | | |
| Yanvar | 89,2 | 212,0 |

Cədvəl 22

### Maşın və avadanlıqların, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | 01.02.2026-cı il vəziyyətinə sənaye müəssisələrinin anbarlarında hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Maşın və avadanlıqların istehsalı** | | | |
| Nasoslar, ədəd | 251 | 68,0 | 428 |
| ondan:<br>ştanqlı quyu nasosları, ədəd | - | - | 379 |
| Kran, qapaq və klapanlar, ton | 1,6 | - | 72,1 |
| ondan fontan armaturu, ton | - | - | - |
| Traktorlar, ədəd | 30 | 65,2 | 6 |
| **Avtomobil, qoşqu və yarımqoşquların istehsalı** | | | |
| Minik avtomobilləri, ədəd | 402 | 171,1 | 244 |
| Yük avtomobilləri, ədəd | 56 | 7,0 d. | 19 |

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorları

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2026-cı ilin yanvar ayında 350,8 milyon manat dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 45,4 milyon manat təşkil etmişdir.

Cədvəl 23

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq ayına nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 350,8 | 97,1 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 45,4 | 94,3 |

Cədvəl 24

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2026-cı ilin yanvar ayında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə |
|---|---|---|
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | | |
| Elektrik enerjisi, mln. kVt.s | 2257,0* | 96,2 |
| ondan əmtəəlik | 2186,6 | 96,5 |
| istilik elektrik stansiyalarının istehsalı | 1978,6 | 97,5 |
| ondan: tullantıların yandırılmasından alınan elektrik enerjisi | 22,1 | 121,1 |
| su elektrik stansiyalarının istehsalı | 133,4 | 61,5 |
| külək elektrik stansiyalarının istehsalı | 56,1 | 21,6 d. |
| günəş elektrik stansiyalarının istehsalı | 18,5 | 115,6 |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | | |
| Suyun təmizlənməsi və bölüşdürülməsi, mln. kub metr | 48,6 | 110,0 |

*) əsas fəaliyyəti elektrik enerjisinin istehsalı olmayan müəssisələr nəzərə alınmadan

# Tikinti

## Əsas kapitala yönəldilmiş investisiyalar

2026-cı ilin yanvar ayında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 1405,9 milyon manat və ya 2025-ci ilin yanvar ayı ilə müqayisədə 75,6 faiz çox investisiya yönəldilmişdir. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 78,3 faiz, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 73,9 faiz çox olmuşdur. Ümumi sərmayənin 758,6 milyon manatı və ya 54,0 faizi məhsul istehsalı sahələrinin, 551,0 milyon manatı (39,2 faizi) xidmət sahələrinin, 96,3 milyon manatı (6,8 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşmüşdür.

Ümumi sərmayənin 17,2 faizi dövlət, 82,8 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Sərmayə qoyuluşunun 41,1 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş investisiyanın dəyəri ümumi sərmayənin 71,4 faizini təşkil etmişdir.

2026-cı ilin yanvar ayında əsas kapitala yönəldilmiş ümumi investisiyanın 46,5 faizi sənaye, 32,4 faizi nəqliyyat və anbar təsərrüfatı,14,3 faizi tikinti, 5,3 faizi informasiya və rabitə, hər biri 0,3 faiz olmaqla dövlət idarəetməsi və müdafiə, maliyyə və sığorta, inzibati və yardımçı xidmətlərin göstərilməsi, ticarət; nəqliyyat vasitələrinin təmiri, hər biri 0,1 faiz olmaqla turistlərin yerləşdirilməsi və ictimai iaşə, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət sahələrinə sərf edilmişdir.

Cədvəl 25

## İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların dəyəri

| İqtisadiyyatın sahələri | 2026-cı ilin yanvar ayında, milyon manat | Əvvəlki ilin müvafiq ayına nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **1405,9** | **175,6** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **1,5** | **26,2** | **0,1** |
| **Sənaye** | **653,1** | **146,9** | **46,5** |
| o cümlədən: Mədənçıxarma sənayesi | 572,7 | 178,8 | 40,7 |
| Emal sənayesi | 54,4 | 2,6 d. | 3,9 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 26,0 | 25,1 | 1,9 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | - | - | - |
| **Tikinti** | **200,3** | **84,0** | **14,3** |
| ondan mənzil tikintisi | 96,3 | 54,8 | 6,9 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **4,2** | **107,8** | **0,3** |
| **Nəqliyyat və anbar təsərrüfatı** | **456,1** | **10,6 d.** | **32,4** |
| o cümlədən: nəqliyyat | 455,9 | 10,6 d. | 32,4 |
| poçt və kuryer fəaliyyəti | 0,2 | 3,9 d. | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **1,0** | **17,0** | **0,1** |
| **İnformasiya və rabitə** | **74,3** | **2,3 d.** | **5,3** |
| ondan rabitə | 73,3 | 2,9 d. | 5,2 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **3,6** | **95,2** | **0,3** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **0,1** | **182,3** | **0,0** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **0,4** | **29,1** | **0,0** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **4,8** | **180,6** | **0,3** |
| **Dövlət idarəetməsi və müdafiə; sosial təminat** | **4,5** | **59,0** | **0,3** |

...ardı

| İqtisadiyyatın sahələri | 2026-cı ilin yanvar ayında, milyon manat | Əvvəlki ilin müvafiq ayına nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi yekunda xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Təhsil** | **0,6** | **5,4** | **0,0** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **0,4** | **49,2** | **0,0** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **1,0** | **13,8 d.** | **0,1** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **-** | **-** | **-** |

2026-cı ilin yanvar ayında neft-qaz sektoruna 571,5 milyon manatlıq investisiya yönəldilmişdir. Qeyri neft-qaz sektorunun inkişafına sərf edilmiş 834,4 milyon manatlıq investisiyanın 81,5 milyon manatı (ümumi sərmayənin 5,8 faizi) qeyri neft-qaz sənayesi sektorunda istifadə edilmişdir.

Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş investisiyanın 395,0 milyon manatı (98,3 faizi) Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Türkiyə, Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları, Yaponiya, İsveçrə, İran İslam Respublikası, Macarıstan, Fransa və Birləşmiş Ərəb Əmirlikləri sərmayədarlarına məxsus olmuşdur.

2026-cı ildə Xızı və Abşeron rayonlarında "Xızı-Abşeron" Külək Elektrik Stansiyası, Sumqayıt şəhərində güzgü vərəqələrin istehsalı zavodu, karton və qutu taralarının istehsalı müəssisəsi, Ağdərə rayonunda "Qozlukörpü" Su Elektrik Stansiyası və s. mühüm əhəmiyyətli obyektlər istifadəyə verilmişdir.

Cədvəl 26

**2026-cı ilin yanvar ayında əsas kapitala yönəldilmiş investisiyalar** (bütün maliyyə mənbələri hesabına)

| | 2026-cı ilin yanvar ayında, milyon manat | Əvvəlki ilin müvafiq ayına nisbətən (müqayisəli qiymətlərlə), faizlə |
|---|---|---|
| **Əsas kapitala yönəldilmiş investisiyalar, milyon manat** | **1405,9** | **175,6** |
| ondan:<br>tikinti-quraşdırma işlərinə | 577,2 | 100,3 |
| ümumi yekundan:<br>məhsul istehsalı sahələrinə | 758,6 | 147,9 |
| xidmət sahələrinə | 551,0 | 4,9 d. |
| yaşayış evlərinin tikintisinə | 96,3 | 54,8 |
| ümumi yekundan:<br>neft-qaz sektoruna | 571,5 | 178,3 |
| qeyri neft-qaz sektoruna | 834,4 | 173,9 |
| ondan:<br>qeyri neft-qaz emal sənayesi | 52,5 | 2,7 d. |
| ümumi yekundan:<br>xarici mənbələrdən yönəldilmiş investisiyalar | 401,9 | 126,1 |
| o cümlədən<br>neft-qaz sektoru | 374,5 | 180,2 |
| qeyri neft-qaz sektoru | 27,4 | 24,7 |
| daxili mənbələrdən yönəldilmiş investisiyalar | 1004,0 | 2,1 d. |
| o cümlədən<br>neft-qaz sektoru | 197,0 | 174,7 |
| qeyri neft-qaz sektoru | 807,0 | 2,2 d. |

2026-cı ilin yanvar ayında tikinti müəssisələri tərəfindən (fərdi sahibkarlar nəzərə alınmaqla) yerinə yetirilmiş inşaat işlərinin 73,1 faizini inşa, yenidənqurma və bərpa, 11,2 faizini əsaslı təmir, 9,5 faizini cari təmir, 6,2 faizini isə sair tikinti işləri təşkil etmişdir. Ümumi inşaat işlərinin 92,2 faizini qeyri-dövlət mülkiyyətində olan tikinti müəssisələri yerinə yetirmişlər.

Qrafik 7

**Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin strukturu** (ümumi yekuna görə, faizlə)



# Kənd təsərrüfatı

2026-cı ilin yanvar ayı üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 582,6 milyon manat təşkil etmişdir ki, onun da 549,8 milyon manatı heyvandarlıq, 32,8 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

Qrafik 8

**Kənd təsərrüfatının ümumi məhsulunun strukturu**



Əvvəlki ilin müvafiq ayı ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 0,1 faiz, o cümlədən bitkiçilik məhsulları istehsalı 5,6 faiz artmış, heyvandarlıq məhsulları istehsalı 0,3 faiz azalmışdır.

Cədvəl 27

**Kənd təsərrüfatı üzrə istehsal indeksinin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Cəmi | Cəmi | |
| | | heyvandarlıq məhsulları | bitkiçilik məhsulları |
| **2025-ci il** | | | |
| Yanvar | 102,2 | 101,3 | 120,8 |
| Yanvar-fevral | 102,1 | 101,5 | 114,0 |
| Yanvar-mart | 101,9 | 101,2 | 113,0 |
| Yanvar-aprel | 101,8 | 101,1 | 109,3 |
| Yanvar-may | 101,5 | 101,0 | 103,1 |
| Yanvar-iyun | 101,4 | 101,0 | 101,8 |
| Yanvar-iyul | 100,3 | 101,1 | 99,6 |
| Yanvar-avqust | 99,2 | 101,1 | 97,5 |
| Yanvar-sentyabr | 100,1 | 101,1 | 99,3 |
| Yanvar-oktyabr | 101,0 | 100,4 | 101,5 |
| Yanvar-noyabr | 101,1 | 100,4 | 101,9 |
| Yanvar-dekabr | 100,9 | 100,3 | 101,5 |
| **2026-cı il** | | | |
| Yanvar | 100,1 | 99,7 | 105,6 |

2026-cı ilin yanvar ayında quş əti də daxil olmaqla diri çəkidə 47,5 min ton ət, 158,9 min ton süd, 182,8 milyon ədəd yumurta istehsal edilmiş, 2025-ci ilin müvafiq ayına nisbətən ət istehsalı 0,4 faiz artmış, süd istehsalı 0,5 faiz, yumurta istehsalı 5,7 faiz azalmışdır.

Qrafik 9

**Əsas növ heyvandarlıq məhsullarının istehsalı**




2026-cı il yanvarın 1-i vəziyyətinə damazlıq təsərrüfatlarında 23,9 min baş iribuynuzlu mal-qara, 17,4 min baş qoyun və keçi mövcud olmuşdur. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün dövlət və özəl damazlıq təsərrüfatları heyvandarlıqla məşğul olan hüquqi və fiziki şəxslərə ötən il 6,9 min baş iribuynuzlu mal-qara, 4,0 min baş qoyun və keçi satmışdır.

2025-ci ildə 174,6 min baş inək və düyələr elit törədicilərin toxumları ilə mayalandırılmışdır.

Cədvəl 28

## Mal-qaranın sayı
(ayın 1-i vəziyyətinə, min başla)

| | İribuynuzlu mal-qara | ondan inək və camışlar | Qoyun və keçilər |
|---|---|---|---|
| **2024** | | | |
| Yanvar | 2 507,7 | 1 235,1 | 7 060,6 |
| Aprel | 2 512,8 | 1 238,8 | 7 206,0 |
| İyul | 2 505,1 | 1 240,1 | 7 132,1 |
| Oktyabr | 2 489,3 | 1 235,3 | 7 005,7 |
| **2025** | | | |
| Yanvar | 2 465,6 | 1 224,2 | 6 896,5 |
| Aprel | 2 456,6 | 1 220,0 | 6 920,0 |
| İyul | 2 453,8 | 1 220,2 | 6 886,5 |
| Oktyabr | 2 438,8 | 1 218,0 | 6 763,7 |
| **2026** | | | |
| Yanvar | 2 435,5 | 1 207,1 | 6 757,8 |

2025-ci ildə ölkədə ümumi sahəsi 1,5 min hektar olan 2995 vahid istixana fəaliyyət göstərmiş və həmin istixanalarda 156,8 min ton pomidor, 7,5 min ton xiyar, 1,8 min ton göbələk, 241,1 ton çiyələk, 52,0 ton limon, 27,4 ton bibər, 22,2 ton baş soğan, 17,5 ton badımcan və sair meyvə və tərəvəz istehsal olunmuşdur. Ölkənin digər rayonlarına nisbətən Xəzər, Şəmkir, Abşeron, Salyan, Sabunçu, Binəqədi, Kürdəmir, Samux, Xızı, Tovuz və Hacıqabul rayonlarının istixana təsərrüfatlarında daha çox məhsul yetişdirilmişdir.

Yanvar ayında respublikada örtülü torpaq sahələrindən 27,0 min ton tərəvəz toplanmışdır.

# Nəqliyyat

2026-cı ilin yanvar ayı ərzində yük və sərnişin daşımaları əvvəlki ilin yanvar ayı ilə müqayisədə müvafiq olaraq 0,4 faiz azalmış və 6,8 faiz artmışdır.

Nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 18,3 milyon ton yük daşınmışdır. Yüklərin 3,6 faizi dəniz, 6,7 faizi dəmir yolu, 0,1 faizi hava, 59,0 faizi avtomobil nəqliyyatı, 30,6 faizi isə boru kəməri ilə daşınmışdır.

Qrafik 10

**Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu,**
faizlə




Qeyri-dövlət sektoruna məxsus nəqliyyat vasitələri ilə daşınmış yüklərin həcmi 3,9 faiz artmış, daşınmış yüklərin ümumi həcmində bu sektorun xüsusi çəkisi 78,0 faiz təşkil etmişdir.

2026-cı ilin yanvar ayında nəqliyyatçılar 167,8 milyon sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 88,8 faizi avtomobil nəqliyyatı, 10,5 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**Dəmir yolu nəqliyyatı** ilə 2026-cı ilin yanvar ayında 1,2 milyon ton yük, 856,2 min sərnişin daşınmış, 2025-ci ilin yanvar ayı ilə müqayisədə yük daşınmasında 18,9 faiz azalma, sərnişin daşınmasında isə 20,0 faiz artım müşahidə olunmuşdur.

**Dəniz nəqliyyatı** ilə 2026-cı ilin yanvar ayında daşınmış yüklərin həcmi 658,8 min ton təşkil etmiş və əvvəlki ilin yanvar ayına nisbətən 20,1 faiz azalmışdır. Yüklərin 60,1 faizini neft yükləri təşkil etmişdir.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2025-ci ilin yanvar ayına nisbətən 29,6 faiz azalaraq 1,9 min nəfər olmuşdur.

Dəniz limanları tərəfindən 916,9 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilmiş və yüklərin 705,9 min tonunu və ya 77,0 faizini tranzit yüklər təşkil etmişdir.

2026-cı il fevral ayının 1-i vəziyyətinə limanlarda qalan yüklərin həcmi 9,8 min ton olmuşdur.

Qrafik 11

**Nəqliyyat sektorunda daşınmış yüklərin həcmi,** min ton



Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan **avtomobil nəqliyyatı** ilə 10,8 milyon ton yük, 149,0 milyon sərnişin daşınmış və əvvəlki ilin yanvar ayı ilə müqayisədə müvafiq olaraq 5,6 faiz və 7,9 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 95,9 faizi avtobus, 4,1 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişdir. Yük dövriyyəsi 6,1 faiz, sərnişin dövriyyəsi isə 8,9 faiz artmışdır.

**Metro nəqliyyatının** xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 2,2 faiz azalaraq 17,6 milyon nəfər olmuşdur.

**Hava nəqliyyatı** ilə 318,1 min və ya əvvəlki ilin yanvar ayı ilə müqayisədə 5,0 faiz çox sərnişin daşınmış, daşımaların 99,9 faizi dövlət, 0,1 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə yükdaşıma 28,2 faiz azalaraq 24,2 min ton olmuşdur.

**Magistral neft kəmərləri** ilə 2731,4 min ton neft nəql edilmişdir. Nəqletmənin 77,3 faizi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və cari ilin yanvar ayı ərzində bu kəmər vasitəsilə 2112,0 min ton neft ötürülmüşdür. Dövr ərzində BTC kəməri ilə nəql edilmiş neftin 82,8 faizini və ya 1748,4 min tonunu Azərbaycanda hasil edilən neft, 17,2 faizini və ya 363,6 min tonunu isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil etmişdir.

**Magistral qaz kəmərləri** ilə 3979,4 milyon kub-metr qaz nəql edilmiş və əvvəlki ilin yanvar ayına nisbətən 11,7 faiz artım müşahidə olunmuşdur. Qazın nəqlinin 47,9 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 1905,1 milyon kub-metr qaz ötürülmüşdür.

2025-ci ilin yanvar-dekabr aylarında nəqliyyat dəhlizlərində dəmir yolu nəqliyyatı ilə 14261,4 min ton, dəniz nəqliyyatı ilə 7229,7 min ton və avtomobil nəqliyyatı ilə 11046,1 min ton yük daşınmışdır.

Cədvəl 29

## Nəqliyyat sektorunda yük daşınması, min ton

| | 2026-cı ilin yanvar ayında | 2025-ci ilin yanvar ayında | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **18 299,8** | **18 366,5** | **99,6** |
| o cümlədən: Dəmir yolu | 1 225,6 | 1 511,8 | 81,1 |
| Dəniz | 658,8 | 824,1 | 79,9 |
| Hava | 24,2 | 33,7 | 71,8 |
| Boru kəməri | 5 596,5 | 5 774,6 | 96,9 |
| neft kəməri | 2 731,4 | 3 209,5 | 85,1 |
| qaz kəməri | 2 865,1 | 2 565,1 | 111,7 |
| Avtomobil | 10 794,7 | 10 222,3 | 105,6 |

Cədvəl 30

## Nəqliyyat sektorunda yük dövriyyəsi, milyon ton-km

| | 2026-cı ilin yanvar ayında | 2025-ci ilin yanvar ayında | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **7 402,6** | **7 693,0** | **96,2** |
| o cümlədən: Dəmir yolu | 437,4 | 562,0 | 77,8 |
| Dəniz | 501,0 | 462,8 | 108,3 |
| Hava | 214,5 | 278,9 | 76,9 |
| Boru kəməri | 5 014,5 | 5 225,1 | 96,0 |
| neft kəməri | 3 788,8 | 4 182,3 | 90,6 |
| qaz kəməri | 1 225,7 | 1 042,8 | 117,5 |
| Avtomobil | 1 235,2 | 1 164,2 | 106,1 |

Cədvəl 31

## Nəqliyyat sektorunda sərnişin daşınması, min sərnişin

| | 2026-cı ilin yanvar ayında | 2025-ci ilin yanvar ayında | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **167 807,9** | **157 163,6** | **106,8** |
| o cümlədən: Dəmir yolu | 856,2 | 713,7 | 120,0 |
| Dəniz | 1,9 | 2,7 | 70,4 |
| Hava | 318,1 | 303,0 | 105,0 |
| Metro | 17 595,6 | 17 984,4 | 97,8 |
| Avtomobil | 149 036,1 | 138 159,8 | 107,9 |
| avtobus | 142 860,1 | 132 277,9 | 108,0 |
| taksi | 6 176,0 | 5 881,9 | 105,0 |

Cədvəl 32

## Nəqliyyat sektorunda sərnişin dövriyyəsi, milyon sərnişin-km

| | 2026-cı ilin yanvar ayında | 2025-ci ilin yanvar ayında | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **3 191,7** | **2 974,0** | **107,3** |
| o cümlədən: Dəmir yolu | 38,8 | 33,3 | 116,5 |
| Dəniz | 0,7 | 1,1 | 63,6 |
| Hava | 650,1 | 621,2 | 104,7 |
| Metro | 207,7 | 212,3 | 97,8 |
| Avtomobil | 2 294,4 | 2 106,1 | 108,9 |
| avtobus | 2 179,5 | 1 997,7 | 109,1 |
| taksi | 114,9 | 108,4 | 106,0 |

## İnformasiya və rabitə

İnformasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən 2026-cı ilin yanvar ayında əvvəlki ilin yanvar ayı ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 10,0 faiz artaraq 316,1 milyon manat təşkil etmişdir ki, onun da 67,4 faizi əhali tərəfindən istehlak olunmuşdur.

Xidmətlərdən əldə edilən gəlirin 35,9 faizi və ya 113,4 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşmışdır.

Qrafik 12

**2026-cı ilin yanvar ayı üzrə informasiya və rabitə xidmətlərindən əldə olunan gəlir,** milyon manat



# İstehlak bazarı

2026-cı ilin yanvar ayında istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 6,8 milyard manat olmaqla 2025-ci ilin yanvar ayına nisbətən müqayisəli qiymətlərlə 4,6 faiz artmış, ümumi dəyərin 78,1 faizini pərakəndə ticarət dövriyyəsi, 18,7 faizini əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, 3,2 faizini isə ictimai iaşə dövriyyəsi təşkil etmişdir.

Qeyri-dövlət sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2025-ci ilin yanvar ayı ilə müqayisədə 4,5 faiz artaraq 6,5 milyard manata bərabər olmuş, onun 45,7 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşmışdır.

Cədvəl 33

**İstehlak bazarı üzrə əsas göstəricilər**

| | 2026-cı ilin yanvar ayı, milyon manat | 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|
| **İstehlak bazarında satılmış malların və göstərilmiş xidmətlərin ümumi dəyəri** | **6 775,8** | **104,6** |
| o cümlədən: dövlət mülkiyyəti üzrə | 288,1 | 106,1 |
| qeyri-dövlət mülkiyyəti üzrə | 6 487,7 | 104,5 |
| ondan: fərdi sahibkarlar üzrə | 2 963,4 | 102,5 |

Hesabat ayında bir istehlakçı orta hesabla 660,2 manat və ya 2025-ci ilin eyni ayı ilə müqayisədə nominal ifadədə 59,4 manat çox vəsait xərcləmişdir.

# Əmtəə bazarı

2026-cı ilin yanvar ayında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 5,3 milyard manatlıq, o cümlədən 2,9 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 2,4 milyard manatlıq qeyri-ərzaq malları satılmışdır. 2025-ci ilin yanvar ayı ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,7 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,3 faiz, qeyri-ərzaq malları üzrə 6,6 faiz artmışdır.

Cədvəl 34

**Pərakəndə ticarət dövriyyəsinin dinamikası**

| | 2026 | | 2025 | |
|---|---|---|---|---|
| | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 5 292,5 | 103,7 | 4 842,8 | 103,7 |
| Fevral | | | 4 398,4 | 103,8 |
| Mart | | | 5 346,0 | 103,6 |
| **I rüb** | | | **14 587,2** | **103,8** |
| Aprel | | | 3 821,7 | 103,6 |
| May | | | 4 932,4 | 104,0 |
| İyun | | | 6 300,7 | 103,8 |
| **II rüb** | | | **15 054,8** | **103,4** |
| **Yanvar-iyun** | | | **29 642,0** | **103,8** |
| İyul | | | 5 431,0 | 103,9 |
| Avqust | | | 5 350,3 | 103,7 |
| Sentyabr | | | 5 999,5 | 103,6 |
| **III rüb** | | | **16 780,8** | **103,3** |
| **Yanvar-sentyabr** | | | **46 422,8** | **103,7** |
| Oktyabr | | | 6 192,9 | 104,1 |
| Noyabr | | | 5 955,6 | 102,7 |
| Dekabr | | | 9 066,6 | 104,0 |
| **IV rüb** | | | **21 215,1** | **103,2** |
| **Yanvar-dekabr** | | | **67 637,9** | **103,8** |

Hesabat ayında əhalinin bir nəfərinə düşən orta pərakəndə ticarət dövriyyəsi 515,7 manat və ya 2025-ci ilin yanvar ayı ilə müqayisədə nominal ifadədə 42,1 manat çox olmuş, ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla 278,6 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 237,1 manatlıq qeyri-ərzaq malları almışdır.

Cədvəl 35

**Pərakəndə ticarət dövriyyəsinin makrostrukturu**

| | 2026-cı ilin yanvar ayı, milyon manat | Ümumi yekunda xüsusi çəkisi, faizlə | 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **5 292,5** | **100,0** | **103,7** |
| o cümlədən: ərzaq məhsulları | 2 600,5 | 49,1 | 101,2 |
| içkilər və tütün məmulatları | 258,7 | 4,9 | 102,5 |
| qeyri-ərzaq malları | 2 433,3 | 46,0 | 106,6 |

2026-cı ilin yanvar ayında istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 54,0 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 14,4 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,7 faizi avtomobil benzini və dizel yanacağının, 4,5 faizi elektrik malları və mebellərin, 2,7 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,5 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,2 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

Cədvəl 36

## Pərakəndə ticarət dövriyyəsinin mal qrupları üzrə strukturu

| | 2026-cı ilin yanvar ayı, milyon manat | 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **5 292,5** | **103,7** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları | 2 859,2 | 101,3 |
| toxuculuq məhsulları, geyim və ayaqqabılar | 760,9 | 105,6 |
| elektrik malları və mebellər | 239,2 | 105,3 |
| kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsulları | 81,1 | 131,1 |
| əczaçılıq məhsulları və tibbi ləvazimatlar | 141,1 | 125,6 |
| avtomobil benzini və dizel yanacağı | 303,0 | 105,8 |
| digər qeyri-ərzaq malları | 908,0 | 103,8 |

Qrafik 13

## 2026-cı ilin yanvar ayında pərakəndə ticarət dövriyyəsinin mal qrupları üzrə strukturu



Cədvəl 37

## Pərakəndə ticarət dövriyyəsi və indeksləri

| | Ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə | | Qeyri-ərzaq malları üzrə | |
|---|---|---|---|---|
| | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2025** | | | | |
| Yanvar | 2 636,5 | 101,8 | 2 206,3 | 106,1 |
| Fevral | 2 430,4 | 101,8 | 1 968,0 | 106,3 |
| Mart | 3 043,8 | 101,4 | 2 302,2 | 106,5 |
| **I rüb** | **8 110,7** | **101,7** | **6 476,5** | **106,3** |
| Aprel | 2 220,2 | 101,6 | 1 601,5 | 106,5 |
| May | 2 742,5 | 101,6 | 2 189,9 | 107,1 |
| İyun | 3 188,8 | 100,8 | 3 111,9 | 107,0 |
| **II rüb** | **8 151,5** | **101,2** | **6 903,3** | **106,9** |
| **Yanvar - iyun** | **16 262,2** | **101,5** | **13 379,8** | **106,7** |
| İyul | 2 984,2 | 101,6 | 2 446,8 | 106,6 |
| Avqust | 2 977,2 | 100,8 | 2 373,1 | 107,5 |
| Sentyabr | 3 135,5 | 100,3 | 2 864,0 | 107,3 |
| **III rüb** | **9 096,9** | **100,9** | **7 683,9** | **107,1** |
| **Yanvar - sentyabr** | **25 359,1** | **101,3** | **21 063,7** | **106,8** |
| Oktyabr | 3 305,4 | 101,7 | 2 887,5 | 106,8 |
| Noyabr | 3 272,6 | 99,8 | 2 683,0 | 106,3 |
| Dekabr | 4 974,4 | 101,6 | 4 092,2 | 106,9 |
| **IV rüb** | **11 552,4** | **101,0** | **9 662,7** | **106,7** |
| **Yanvar - dekabr** | **36 911,5** | **101,2** | **30 726,4** | **106,8** |
| **2026** | | | | |
| Yanvar | 2 859,2 | 101,3 | 2 433,3 | 106,6 |

Qrafik 14

**2026-cı ilin yanvar ayında pərakəndə ticarət dövriyyəsinin strukturu**




Cədvəl 38

**Əmtəə bazarı üzrə əsas göstəricilər**

| | 2026-cı ilin yanvar ayı, milyon manat | 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **5 292,5** | **103,7** |
| o cümlədən: müəssisələr üzrə | 1 521,6 | 105,4 |
| fərdi sahibkarlar üzrə | 2 546,5 | 101,8 |
| bazar və yarmarkalar üzrə | 1 224,4 | 105,5 |

Qeyri-dövlət sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən pərakəndə ticarət şəbəkəsində satılmış malların dəyəri 2025-ci ilin yanvar ayı ilə müqayisədə 3,8 faiz artaraq 5282,3 milyon manata bərabər olmuş, onun 48,2 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşmışdır.

2025-ci ildə 2024-cü illə müqayisədə topdansatış ticarət dövriyyəsi faktiki qiymətlərlə 0,9 faiz artaraq 36277,1 milyon

manata bərabər olmuşdur. Dövriyyənin 28,1 faizi ərzaq məhsullarının, 10,0 faizi içkilər və tütün məmulatlarının, 8,1 faizi bərk və maye yanacaqların, 5,9 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 5,7 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 4,1 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 3,6 faizi elektrik malları və mebellərin, 34,5 faizi isə digər qeyri-ərzaq mallarının topdan satışı sayəsində formalaşmışdır.

2025-ci ildə pərakəndə ticarət dövriyyəsinin 61,1 faizi Bakı şəhərinin (2024-cü illə müqayisədə real ifadədə 4,4 faiz çox), 5,7 faizi Abşeron-Xızı (9,2 faiz çox), 4,4 faizi Mərkəzi Aran (0,8 faiz az), 4,1 faizi Lənkəran-Astara (4,0 faiz çox), 3,7 faizi Gəncə-Daşkəsən (0,1 faiz çox), 3,5 faizi Qazax-Tovuz (1,2 faiz çox), 3,1 faizi Quba-Xaçmaz (eyni səviyyədə), 2,9 faizi Şirvan-Salyan (0,8 faiz az), 2,8 faizi Şəki-Zaqatala (0,1 faiz çox), 2,5 faizi Qarabağ (3,8 faiz çox), 2,3 faizi Mil-Muğan (0,5 faiz çox) iqtisadi rayonlarının, 2,0 faizi Naxçıvan Muxtar Respublikasının (4,0 faiz çox), 1,5 faizi Dağlıq Şirvan (0,3 faiz çox), 0,4 faizi Şərqi Zəngəzur (10,5 faiz çox) iqtisadi rayonlarının təsərrüfat subyektlərinin ticarət fəaliyyəti sayəsində yaranmışdır.

Qrafik 15

**2025-ci ildə pərakəndə ticarət dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturu,** yekuna nisbətən faizlə




2026-cı ilin yanvar ayında pərakəndə ticarət dövriyyəsinin 0,66 faizi informasiya sistemlərindən (internet, ekstranet və s.) istifadə edilməklə malların alqı-satqısı üzrə həyata keçirilən fəaliyyət sayəsində formalaşmışdır. 2025-ci ilin yanvar ayı ilə müqayisədə elektron pərakəndə ticarət dövriyyəsi real ifadədə 59,8 faiz artaraq 35,0 milyon manat təşkil etmişdir.

# İctimai iaşə xidmətləri

2026-cı ilin yanvar ayında ictimai iaşə dövriyyəsi 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 9,6 faiz artaraq 219,2 milyon manat olmuşdur.

Cədvəl 39

**İctimai iaşə dövriyyəsi**

| | 2026-cı ilin yanvar ayında, min manat | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|
| **Cəmi** | **219 224,8** | **109,6** |
| o cümlədən: dövlət mülkiyyəti | 2 516,9 | 135,3 |
| qeyri-dövlət mülkiyyəti | 216 707,9 | 109,4 |
| ondan: fiziki şəxslər | 107 605,3 | 109,2 |

Özəl sektorda ictimai iaşə dövriyyəsinin 50,3 faizi hüquqi şəxslərin, 49,7 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşür. Hüquqi şəxslər üzrə dövriyyə 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 9,6 faiz artaraq 109,1 milyon manat olmuşdur.

Cədvəl 40

## İctimai iaşə dövriyyəsinin dinamikası

| | 2025-ci il | | 2026-cı il | |
|---|---|---|---|---|
| | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | min manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 187 914,8 | 121,2 | 219 224,8 | 109,6 |
| Fevral | 183 964,4 | 117,8 | | |
| Mart | 189 400,8 | 114,1 | | |
| **I rüb** | **561 280,0** | **117,6** | | |
| Aprel | 202 743,5 | 118,2 | | |
| May | 223 851,4 | 112,8 | | |
| İyun | 254 350,9 | 106,2 | | |
| **II rüb** | **680 945,8** | **111,7** | | |
| **Yanvar-iyun** | **1 242 225,8** | **114,3** | | |
| İyul | 253 719,8 | 112,7 | | |
| Avqust | 255 088,1 | 114,7 | | |
| Sentyabr | 239 135,1 | 107,4 | | |
| **III rüb** | **747 943,0** | **111,6** | | |
| **Yanvar-sentyabr** | **1 990 168,8** | **113,2** | | |
| Oktyabr | 249 103,9 | 112,8 | | |
| Noyabr | 249 505,7 | 109,0 | | |
| Dekabr | 319 772,8 | 108,4 | | |
| **IV rüb** | **818 382,4** | **109,9** | | |
| **İllik** | **2 808 551,2** | **112,2** | | |

# Əhaliyə göstərilən ödənişli xidmətlər

2026-cı ilin yanvar ayında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 7,6 faiz artaraq 1264,1 milyon manat olmuşdur. Hüquqi şəxslər tərəfindən əhaliyə 954,7 milyon manatlıq xidmət göstərilmişdir ki, bu da xidmətlərin ümumi dəyərinin 75,5 faizini təşkil etmişdir.

Cədvəl 41

**Ödənişli xidmətlərin göstərilməsi**

| | 2026-cı ilin yanvar ayında, milyon manat | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|
| **Ödənişli xidmətlərin ümumi dəyəri - cəmi** | **1 264,1** | **107,6** |
| o cümlədən: dövlət mülkiyyəti | 275,4 | 107,5 |
| qeyri-dövlət mülkiyyəti | 988,7 | 107,6 |
| ondan: fiziki şəxslər | 309,3 | 106,0 |

2026-cı ilin yanvar ayında hər bir ölkə sakini orta hesabla 123,2 manatlıq və ya 2025-ci ilin eyni dövrü ilə müqayisədə nominal ifadədə 14,4 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə etmişdir.

2025-ci ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2024-cü illə müqayisədə Bakı şəhəri üzrə 10,3, Abşeron-Xızı iqtisadi rayonu üzrə 9,9 faiz, Gəncə-Daşkəsən iqtisadi rayonu üzrə 8,4 faiz, Şirvan-Salyan iqtisadi rayonu üzrə 8,1 faiz, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 8,0 faiz, Qazax-Tovuz iqtisadi rayonu üzrə 7,5 faiz, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 7,2 faiz, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 5,8 faiz, Mərkəzi Aran iqtisadi rayonu üzrə 5,5 faiz, Lənkəran-Astara iqtisadi rayonu üzrə 5,3 faiz, Qarabağ iqtisadi rayonu üzrə 3,1 faiz, Mil-Muğan iqtisadi rayonu üzrə 1,8 faiz, Naxçıvan Muxtar Respublikası üzrə 0,3 faiz artmışdır.

Cədvəl 42

## Əhaliyə göstərilən ödənişli xidmətlərin indeksləri

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | o cümlədən | |
| | | hüquqi şəxslər üzrə | fiziki şəxslər üzrə |
| **2025-ci il** | | | |
| Yanvar | 108,5 | 109,2 | 106,5 |
| Yanvar-fevral | 109,4 | 109,9 | 108,1 |
| Yanvar-mart | 109,4 | 109,8 | 108,1 |
| Yanvar-aprel | 109,6 | 110,2 | 107,9 |
| Yanvar-may | 109,7 | 110,2 | 108,2 |
| Yanvar-iyun | 109,5 | 109,9 | 108,3 |
| Yanvar-iyul | 109,3 | 109,4 | 108,6 |
| Yanvar-avqust | 109,0 | 109.0 | 109,3 |
| Yanvar-sentyabr | 109,1 | 108.9 | 109,5 |
| Yanvar-oktyabr | 109,2 | 109,1 | 109,6 |
| Yanvar-noyabr | 108,9 | 108,9 | 109,1 |
| Yanvar-dekabr | 109,0 | 108,8 | 109,6 |
| **2026-cı il** | | | |
| Yanvar | 107,6 | 108,1 | 106,0 |

Qrafik 16

**Əhaliyə göstərilən ödənişli xidmətlər üzrə qiymət və fiziki  həcm indeksləri**

(əvvəlki aya nisbətən, faizlə)



Cədvəl 43

## Əhaliyə göstərilən ödənişli xidmətlər

| | 2025-ci il | | 2026-cı il | |
|---|---|---|---|---|
| | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| Yanvar | 1 112,9 | 108,5 | 1 264,1 | 107,6 |
| Fevral | 1 089,5 | 110,4 | | |
| Mart | 1 132,3 | 109,5 | | |
| **I rüb** | **3 334,7** | **109,4** | | |
| Aprel | 1 167,6 | 110,0 | | |
| May | 1 177,9 | 109,9 | | |
| İyun | 1 183,9 | 108,3 | | |
| **II rüb** | **3 529,4** | **109,4** | | |
| **Yanvar-iyun** | **6 864,1** | **109,5** | | |
| İyul | 1 211,1 | 109,2 | | |
| Avqust | 1 212,6 | 106,5 | | |
| Sentyabr | 1 275,3 | 110,0 | | |
| **III rüb** | **3 699,0** | **108,7** | | |
| **Yanvar-sentyabr** | **10 563,1** | **109,1** | | |
| Oktyabr | 1 304,0 | 109,9 | | |
| Noyabr | 1 366,3 | 107,5 | | |
| Dekabr | 1 723,3 | 109,3 | | |
| **IV rüb** | **4 393,6** | **108,8** | | |
| **İllik** | **14 956,7** | **109,0** | | |

# Qiymət indeksləri

Cədvəl 44

| | 2026-cı ilin yanvar ayı 2025-ci ilin dekabr ayına nisbətən, faizlə | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|
| İstehlak qiymətləri indeksi | 101,5 | 105,7 |
| Sənaye məhsullarının istehsalçı qiymət indeksi | 101,9 | 88,4 |
| o cümlədən: neft-qaz sənayesi | 102,3 | 83,8 |
| qeyri neft-qaz sənayesi | 100,8 | 104,7 |
| Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi | 101,7 | 106,6 |
| Nəqliyyat və anbar təsərrüfatı xidmətlərinin qiymət indeksi | 100,3 | 105,5 |
| Poçt və kuryer xidmətlərinin qiymət indeksi | 102,6 | 101,5 |
| Rabitə xidmətlərinin qiymət indeksi | 100,0 | 101,9 |

| | 2025-ci ilin dekabr ayı 2025-ci ilin noyabr ayına nisbətən, faizlə | 2025-ci ilin dekabr ayı 2024-cü ilin dekabr ayına nisbətən, faizlə | 2025-ci ilin yanvar-dekabr ayları 2024-cü ilin yanvar-dekabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| İdxal olunan məhsulların qiymət indeksi | 102,1 | 132,1 | 126,6 |
| İxrac olunan məhsulların qiymət indeksi | 99,9 | 95,4 | 102,0 |
| o cümlədən: qeyri neft-qaz məhsulları | 107,9 | 144,8 | 132,0 |

Qrafik 17

## İstehlak və istehsalçı qiymət indeksləri, faizlə




Qrafik 18

## İstehlak qiymətləri indeksi və sənaye məhsullarının istehsalçı qiymət indeksi

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



## İstehlak qiymətləri indeksi

2026-cı ilin yanvar ayında istehlak qiymətləri indeksi 2025-ci ilin dekabr ayı ilə müqayisədə 101,5 faiz, yanvar ayı ilə müqayisədə isə 105,7 faiz təşkil etmişdir.

Cədvəl 45

**İstehlak qiymətləri indeksinin dəyişməsi**

| | Cəmi məhsullar və xidmətlər | | | Qida məhsulları, içkilər və tütün məmulatları | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2025-ci il** | | | | | | |
| Yanvar | 101,0 | 105,4 | 105,4 | 100,6 | 105,0 | 105,0 |
| Fevral | 100,7 | 105,5 | 105,4 | 101,4 | 105,7 | 105,3 |
| Mart | 100,6 | 105,9 | 105,6 | 101,2 | 106,5 | 105,7 |
| **I rüb** | **102,6** | - | **105,6** | **103,8** | - | **105,7** |
| Aprel | 100,3 | 106,3 | 105,8 | 100,6 | 107,6 | 106,2 |
| May | 99,9 | 106,3 | 105,9 | 99,6 | 107,8 | 106,5 |
| İyun | 99,6 | 106,0 | 105,9 | 98,8 | 107,0 | 106,6 |
| **II rüb** | **100,8** | - | **106,2** | **101,2** | - | **107,5** |
| İyul | 99,9 | 105,0 | 105,8 | 99,5 | 106,2 | 106,6 |
| Avqust | 100,4 | 104,9 | 105,6 | 100,3 | 106,6 | 106,6 |
| Sentyabr | 101,1 | 105,7 | 105,7 | 101,8 | 107,9 | 106,7 |
| **III rüb** | **100,2** | - | **105,2** | **99,3** | - | **106,9** |
| Oktyabr | 100,5 | 105,9 | 105,7 | 100,8 | 108,2 | 106,9 |
| Noyabr | 100,3 | 105,5 | 105,7 | 100,4 | 107,1 | 106,9 |
| Dekabr | 100,8 | 105,2 | 105,6 | 101,4 | 106,4 | 106,8 |
| **IV rüb** | **101,8** | - | **105,5** | **102,8** | - | **107,2** |
| **2026-cı il** | | | | | | |
| Yanvar | 101,5 | 105,7 | 105,7 | 101,3 | 107,1 | 107,1 |

| | Qeyri-qida məhsulları | | | Xidmətlər | | |
|---|---|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2025-ci il** | | | | | | |
| Yanvar | 100,3 | 102,6 | 102,6 | 102,0 | 108,4 | 108,4 |
| Fevral | 100,2 | 102,7 | 102,7 | 100,2 | 107,4 | 107,9 |
| Mart | 100,1 | 102,8 | 102,7 | 100,2 | 107,5 | 107,8 |
| **I rüb** | **100,7** | - | **102,7** | **102,5** | - | **107,8** |
| Aprel | 100,0 | 102,7 | 102,7 | 100,2 | 107,6 | 107,7 |
| May | 100,2 | 102,7 | 102,7 | 100,2 | 107,3 | 107,6 |
| İyun | 100,1 | 102,8 | 102,7 | 100,2 | 107,2 | 107,5 |
| **II rüb** | **100,4** | **-** | **102,8** | **100,6** | **-** | **107,3** |
| İyul | 100,1 | 102,1 | 102,6 | 100,4 | 105,6 | 107,3 |
| Avqust | 100,1 | 102,1 | 102,6 | 100,6 | 104,9 | 106,9 |
| Sentyabr | 100,5 | 102,4 | 102,6 | 100,6 | 105,3 | 106,8 |
| **III rüb** | **100,6** | - | **102,2** | **101,2** | - | **105,2** |
| Oktyabr | 100,3 | 102,5 | 102,6 | 100,4 | 105,6 | 106,6 |
| Noyabr | 100,2 | 102,5 | 102,6 | 100,3 | 105,7 | 106,6 |
| Dekabr | 100,2 | 102,5 | 102,5 | 100,3 | 105,7 | 106,5 |
| **IV rüb** | **100,9** | **-** | **102,5** | **101,3** | **-** | **105,7** |
| **2026-cı il** | | | | | | |
| Yanvar | 101,3 | 103,5 | 103,5 | 101,9 | 105,6 | 105,6 |

Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan və bazis inflyasiyası kimi qəbul edilmiş istehlak qiymətlərinin bazis indeksi 2026-cı ilin yanvar ayında 2025-ci ilin dekabr ayı ilə müqayisədə 100,9 faiz, yanvar ayı ilə müqayisədə isə 105,5 faiz təşkil etmişdir.

Qrafik 19

**İstehlak qiymətləri indeksi və istehlak qiymətlərinin bazis indeksinin dəyişməsi** (əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




2026-cı ilin yanvar ayında qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi 2025-ci ilin dekabr ayı ilə müqayisədə 101,3 faiz, yanvar ayı ilə müqayisədə isə 107,1 faiz təşkil etmişdir.

Cədvəl 46

**Qida məhsulları, içkilər və tütün məmulatlarının istehlak qiymətləri indeksləri**

| | 2026-cı ilin yanvar ayı 2025-ci ilin dekabr ayına nisbətən, faizlə | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə | Məlumat üçün: 2025-ci ilin yanvar ayı 2024-cü ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| Çörək, çörək məmulatları və yarmalar | 100,1 | 102,2 | 100,7 |
| Ət və ət məhsulları | 100,3 | 107,9 | 106,8 |
| Balıq və balıq məhsulları | 100,9 | 108,8 | 99,4 |
| Süd və süd məhsulları, yumurta | 100,6 | 110,1 | 99,5 |
| Kərə və bitki yağları | 100,3 | 107,8 | 108,0 |
| Meyvələr | 103,1 | 110,3 | 105,0 |
| Tərəvəzlər | 103,5 | 103,3 | 112,5 |

...ardı

| | 2026-cı ilin yanvar ayı 2025-ci ilin dekabr ayına nisbətən, faizlə | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə | Məlumat üçün: 2025-ci ilin yanvar ayı 2024-cü ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| Qənd, cem, bal, şokolad və konfetlər | 100,4 | 106,6 | 101,6 |
| Digər kateqoriyalara aid edilməyən qida məhsulları | 100,6 | 106,1 | 103,5 |
| Çay, qəhvə, kakao | 100,4 | 107,3 | 103,2 |
| Mineral sular, sərinləşdirici içkilər və şirələr | 100,2 | 103,4 | 105,0 |
| Araq, brendi (konyak) | 100,8 | 108,5 | 104,1 |
| Tütün məmulatları | 108,7 | 111,5 | 100,0 |

2026-cı ilin yanvar ayında qeyri-qida məhsulları üzrə istehlak qiymətləri indeksi 2025-ci ilin dekabr ayı ilə müqayisədə 101,3 faiz, yanvar ayı ilə müqayisədə isə 103,5 faiz təşkil etmişdir.

Cədvəl 47

**Qeyri-qida məhsullarının istehlak qiymətləri indeksləri**

| | 2026-cı ilin yanvar ayı 2025-ci ilin dekabr ayına nisbətən, faizlə | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə | Məlumat üçün: 2025-ci ilin yanvar ayı 2024-cü ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| Parçalar | 102,2 | 104,5 | 105,0 |
| Geyim | 100,5 | 102,3 | 102,8 |
| Ayaqqabı | 100,3 | 100,5 | 102,5 |
| İnşaat materialları | 100,8 | 102,7 | 103,0 |
| Mebel və ev əşyaları | 100,6 | 102,9 | 102,2 |
| Xalça və digər döşəmə örtükləri | 101,7 | 105,2 | 103,5 |
| Məişət cihazları | 100,5 | 101,4 | 100,7 |
| Kiçik elektrik cihazları | 100,7 | 102,6 | 101,4 |
| Şüşə məmulatları, yemək qabları və əşyaları | 100,7 | 105,6 | 103,0 |

…ardı

| | 2026-cı ilin yanvar ayı 2025-ci ilin dekabr ayına nisbətən, faizlə | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə | Məlumat üçün: 2025-ci ilin yanvar ayı 2024-cü ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| Evə qulluq etmək üçün lazım olan məhsullar (yuyucu vasitələr və s.) | 100,4 | 101,8 | 100,7 |
| Dərmanlar | 100,0 | 100,1 | 100,0 |
| Müalicə ləvazimatları və cihazları | 100,6 | 103,9 | 101,4 |
| Minik avtomobilləri | 100,0 | 99,2 | 98,5 |
| Velosipedlər | 101,2 | 100,1 | 100,3 |
| Minik avtomobilləri üçün ehtiyat hissələri | 100,5 | 102,9 | 102,1 |
| Yanacaq məhsulları (benzin və dizel yanacağı) | 105,0 | 105,1 | 107,1 |
| Telefon aparatları | 101,5 | 98,9 | 94,0 |
| Foto-kino avadanlıqları və optik cihazlar | 100,2 | 100,4 | 99,9 |
| Məlumatın işlənməsi üçün avadanlıqlar (fərdi kompüter, noutbuk, planşet) | 100,3 | 99,3 | 98,5 |
| Oyuncaqlar | 102,0 | 106,0 | 104,5 |
| Açıq havada idman, turizmlə məşğul olmaq və istirahət vaxtı istifadə etmək üçün əşyalar | 100,9 | 104,5 | 104,0 |
| Kitablar | 100,6 | 102,0 | 103,1 |
| Qəzetlər və digər dövri nəşrlər | 102,0 | 102,2 | 100,3 |
| Dəftərxana və şəkil çəkmək üçün ləvazimat | 100,8 | 103,4 | 99,2 |
| Şəxsi gigiyena əşyaları, saç qurutmaq üçün fenlər | 100,0 | 103,4 | 102,7 |
| Zərgərlik məmulatları | 107,9 | 133,6 | 113,1 |
| Sair şəxsi istifadə əşyaları | 101,4 | 103,1 | 100,4 |

2026-cı ilin yanvar ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi 2025-ci ilin dekabr ayı ilə müqayisədə 101,9 faiz, yanvar ayı ilə müqayisədə isə 105,6 faiz təşkil etmişdir.

Cədvəl 48

## Əhaliyə göstərilmiş ödənişli xidmətlərin istehlak qiymətləri indeksləri

| | 2026-cı ilin yanvar ayı 2025-ci ilin dekabr ayına nisbətən, faizlə | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə | Məlumat üçün: 2025-ci ilin yanvar ayı 2024-cü ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| Paltarların təmizlənməsi, təmiri və kirayəsi | 101,1 | 106,5 | 103,7 |
| Ayaqqabıların təmiri | 100,7 | 105,6 | 106,3 |
| İcarəçi tərəfindən ödənilmiş icarə haqqı | 100,3 | 106,9 | 107,2 |
| Soyuq su təchizatı xidməti | 100,0 | 100,0 | 100,0 |
| Zibilin daşınması xidməti | 100,0 | 100,0 | 234,8 |
| Kanalizasiya xidməti | 100,0 | 100,0 | 100,0 |
| Elektrik enerjisi təchizatı xidməti | 110,0 | 110,0 | 111,1 |
| Təbii qaz təchizatı xidməti | 105,3 | 105,3 | 111,8 |
| Mərkəzi isitmə xidməti | 100,0 | 150,0 | 200,0 |
| Mebel, ev əşyaları və döşəmə örtüklərinin təmiri | 101,2 | 103,2 | 104,4 |
| Məişət cihazlarının təmiri | 101,7 | 107,3 | 104,8 |
| Ev və məişət xidmətləri | 99,9 | 105,6 | 103,3 |
| Tibbi xidmətlər | 101,6 | 107,3 | 103,5 |
| Stomatoloji xidmətlər | 102,1 | 107,3 | 105,4 |
| Xəstəxana xidmətləri | 100,0 | 103,5 | 104,1 |
| Avtomobillərin təmiri | 100,4 | 104,7 | 103,6 |
| Dəmir yolu nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,0 | 104,2 | 102,3 |
| Metro nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,0 | 120,0 | 125,0 |
| Avtomobil nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,2 | 102,7 | 115,9 |
| Hava nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 93,4 | 133,1 | 112,6 |
| Dəniz nəqliyyatı ilə sərnişin daşınması xidmətləri | 100,0 | 100,0 | 100,0 |

…ardı

| | 2026-cı ilin yanvar ayı 2025-ci ilin dekabr ayına nisbətən, faizlə | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə | Məlumat üçün: 2025-ci ilin yanvar ayı 2024-cü ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|---|
| Poçt xidmətləri | 100,0 | 100,0 | 100,0 |
| Telefon rabitəsi xidmətləri | 100,0 | 104,5 | 127,7 |
| Kompleks istirahətin təşkili üzrə xidmətlər | 100,3 | 109,6 | 92,9 |
| Ödənişli ali təhsil haqqı | 100,0 | 105,2 | 103,0 |
| Restoran və kafelər tərəfindən yeməklə təmin edilmə xidmətləri | 102,0 | 106,4 | 105,6 |
| Mehmanxana xidməti | 100,9 | 103,8 | 102,8 |
| Bərbərxana və kosmetoloji xidmətlər | 103,8 | 108,3 | 106,4 |
| Nəqliyyat vasitələrinin sığortası haqqı | 100,0 | 100,0 | 100,0 |

Cədvəl 49

## Ölkənin iqtisadi rayonları üzrə 2026-cı ilin yanvar ayında istehlak qiymətləri indeksləri (əvvəlki aya nisbətən, faizlə)

| | Cəmi məhsullar və xidmətlər | Qida məhsulları, içkilər və tütün məmulatları | Qeyri-qida məhsulları | Xidmətlər |
|---|---|---|---|---|
| Bakı şəhəri | 101,2 | 101,2 | 101,4 | 100,9 |
| Naxçıvan Muxtar Respublikası | 102,0 | 101,9 | 102,0 | 102,1 |
| Abşeron-Xızı | 101,7 | 101,3 | 102,4 | 101,5 |
| Dağlıq Şirvan | 101,9 | 101,8 | 101,3 | 102,6 |
| Gəncə-Daşkəsən | 101,6 | 101,3 | 101,5 | 102,1 |
| Qarabağ | 101,3 | 101,4 | 101,2 | 101,2 |
| Qazax-Tovuz | 101,5 | 101,2 | 101,6 | 101,8 |
| Quba-Xaçmaz | 101,6 | 101,4 | 101,7 | 101,9 |
| Lənkəran-Astara | 101,7 | 101,2 | 101,3 | 102,6 |
| Mərkəzi Aran | 101,5 | 101,3 | 100,9 | 102,4 |
| Mil-Muğan | 101,6 | 101,0 | 101,1 | 102,7 |
| Şəki-Zaqatala | 101,6 | 101,4 | 101,2 | 102,2 |
| Şərqi Zəngəzur | ... | ... | ... | ... |
| Şirvan-Salyan | 101,7 | 101,4 | 101,2 | 102,4 |

Qrafik 20

## İqtisadi rayonlar üzrə istehlak qiymətləri indeksləri (əvvəlki aya nisbətən, faizlə)



**Sənaye məhsullarının istehsalçı qiymət indeksləri.** 2026-cı ilin yanvar ayında 2025-ci ilin dekabr ayı ilə müqayisədə sənaye məhsullarının istehsalçı qiymət indeksi 101,9 faiz, o cümlədən mədənçıxarma sənayesi üzrə 102,6 faiz, emal sənayesi üzrə 100,5 faiz, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı; tullantıların təmizlənməsi və emalı sahələri üzrə isə 100,0 faiz təşkil etmişdir.

Cari ilin yanvar ayında əvvəlki ayla müqayisədə istehsalçı qiymət indeksi neft-qaz sənayesi məhsulları üzrə 102,3 faiz, qeyri neft-qaz sənayesi məhsulları üzrə isə 100,8 faiz təşkil etmişdir.

Cədvəl 50

**Sənaye məhsullarının istehsalçı qiymət indeksləri**

| | 2026-cı ilin yanvar ayı 2025-ci ilin dekabr ayına nisbətən, faizlə | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|
| **Sənaye məhsullarının istehsalçı qiymət indeksi** | **101,9** | **88,4** |
| neft-qaz sənayesi | 102,3 | 83,8 |
| qeyri neft-qaz sənayesi | 100,8 | 104,7 |
| mədənçıxarma sənayesi | 102,6 | 82,1 |
| emal sənayesi | 100,5 | 104,9 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 100,0 | 100,0 |
| su təchizatı; tullantıların təmizlənməsi və emalı | 100,0 | 100,0 |

**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq məhsullarının istehsalçı qiymət indeksləri.** 2026-cı ilin yanvar ayında 2025-ci ilin dekabr ayı ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 101,7 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 101,9 faiz, heyvandarlıq məhsulları üzrə 101,5 faiz təşkil etmişdir.

2026-cı ilin yanvar ayında əvvəlki ayla müqayisədə meşə təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi 100,0 faiz, balıq və sair balıqçılıq məhsullarının istehsalçı qiymət indeksi 100,9 faiz təşkil etmişdir.

Cədvəl 51

**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq məhsullarının istehsalçı qiymət indeksləri**

| | 2026-cı ilin yanvar ayı 2025-ci ilin dekabr ayına nisbətən, faizlə | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|
| **Kənd təsərrüfatı məhsulları** | **101,7** | **106,6** |
| bitkiçilik məhsulları | 101,9 | 106,7 |
| heyvandarlıq məhsulları | 101,5 | 106,3 |
| **Meşə təsərrüfatı məhsulları** | **100,0** | **100,1** |
| **Balıq və sair balıqçılıq məhsulları** | **100,9** | **101,1** |

**Nəqliyyat, anbar təsərrüfatı, poçt, kuryer, rabitə, proqram təminatının işlənməsi, bu sahədə məsləhətlər, bununla əlaqədar fəaliyyət və reklam xidmətlərinin qiymət indeksləri.** 2026-cı ilin yanvar ayında əvvəlki ayla müqayisədə nəqliyyat və anbar təsərrüfatı xidmətləri üzrə qiymət indeksi 100,3 faiz, o cümlədən nəqliyyatda yükdaşıma xidmətləri üzrə 102,2 faiz, nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə 94,8 faiz, anbar təsərrüfatı və yardımçı nəqliyyat xidmətləri üzrə isə 100,7 faiz təşkil etmişdir.

2026-cı ilin yanvar ayında əvvəlki ayla müqayisədə poçt və kuryer xidmətlərinin qiymət indeksləri 102,6 faiz, rabitə xidmətləri 100,0 faiz, proqram təminatının işlənməsi, bu sahədə məsləhətlər və bununla əlaqədar fəaliyyət 100,1 faiz, reklam xidmətlərinin qiymət indeksləri isə 100,3 faiz təşkil etmişdir.

Cədvəl 52

## Nəqliyyat, anbar təsərrüfatı, poçt, kuryer, rabitə, proqram təminatının işlənməsi, bu sahədə məsləhətlər, bununla əlaqədar fəaliyyət və reklam xidmətlərinin qiymət indeksləri

| | 2026-cı ilin yanvar ayı 2025-ci ilin dekabr ayına nisbətən, faizlə | 2026-cı ilin yanvar ayı 2025-ci ilin yanvar ayına nisbətən, faizlə |
|---|---|---|
| **Nəqliyyat və anbar təsərrüfatı xidmətlərinin qiymət indeksi** | **100,3** | **105,5** |
| yükdaşıma nəqliyyatı xidməti | 102,2 | 102,8 |
| sərnişindaşıma nəqliyyatı xidməti | 94,8 | 113,3 |
| yardımçı nəqliyyat xidməti | 100,3 | 100,3 |
| anbar təsərrüfatı xidməti | 101,3 | 114,6 |
| **Poçt və kuryer xidmətlərinin qiymət indeksi** | **102,6** | **101,5** |
| **Rabitə xidmətlərinin qiymət indeksi** | **100,0** | **101,9** |
| **Proqram təminatının işlənməsi, bu sahədə məsləhətlər və bununla əlaqədar fəaliyyət xidmətlərinin qiymət indeksi** | **100,1** | **105,2** |
| **Reklam xidmətlərinin qiymət indeksi** | **100,3** | **101,4** |

**Tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksləri.** 2025-ci ilin IV rübündə tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksi 2025-ci ilin III rübü ilə müqayisədə 100,2 faiz, o cümlədən yerüstü tikililər üzrə 100,2 faiz, yol və körpü tikintisi üzrə isə 100,1 faiz təşkil etmişdir.

Cədvəl 53

**Tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksləri**

| | 2025-ci ilin IV rübü 2025-ci ilin III rübünə nisbətən, faizlə | 2025-ci ilin IV rübü 2024-cü ilin IV rübünə nisbətən, faizlə | 2025-ci il 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksi-cəmi** | **100,2** | **101,7** | **101,7** |
| **Yerüstü tikililər üzrə qiymət indeksi** | **100,2** | **101,7** | **101,6** |
| yaşayış evləri üzrə qiymət indeksi | 100,0 | 101,0 | 101,1 |
| 5 mərtəbəyə qədər yaşayış evləri | 99,6 | 101,1 | 101,4 |
| 6 və daha çoxmərtəbəli yaşayış evləri | 100,1 | 100,9 | 101,0 |
| sosial təyinatlı binalar üzrə qiymət indeksi | 100,4 | 102,7 | 101,9 |
| inzibati tikililər | 100,2 | 103,0 | 102,4 |
| ümumtəhsil məktəbləri | 100,4 | 102,6 | 101,8 |
| istehsal təyinatlı obyektlər üzrə qiymət indeksi | 100,0 | 101,7 | 102,6 |
| sənaye obyektləri | 100,0 | 101,7 | 102,6 |
| **Yol və körpü tikintisi üzrə qiymət indeksi** | **100,1** | **101,6** | **102,6** |
| yol tikintisi | 100,2 | 101,7 | 102,7 |
| körpü tikintisi | 99,6 | 100,9 | 101,5 |

**İdxal olunan məhsulların qiymət indeksləri.** 2025-ci ilin dekabr ayında idxal olunan məhsulların qiymət indeksi əvvəlki ayla müqayisədə 102,1 faiz, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 132,1 faiz, 2025-ci ilin yanvar-dekabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 126,6 faiz təşkil etmişdir.

2026-cı ilin yanvar ayında ölkəyə idxal edilmiş ərzaqlıq buğdanın 1 tonunun orta qiyməti 395,55 manat təşkil etmişdir.

**İxrac olunan məhsulların qiymət indeksləri.** 2025-ci ilin dekabr ayında ixrac olunan məhsulların qiymət indeksi əvvəlki ayla müqayisədə 99,9 faiz, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 95,4 faiz, 2025-ci ilin yanvar-dekabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 102,0 faiz təşkil etmişdir. İxrac olunan qeyri neft-qaz məhsullarının qiymət indeksi 2025-ci ilin dekabr ayında əvvəlki ayla müqayisədə 107,9 faiz, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə 144,8 faiz, 2025-ci ilin yanvar-dekabr aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 132,0 faiz təşkil etmişdir.

## Kredit qoyuluşları

Mərkəzi Bankın təqdim etdiyi məlumata görə 2026-cı il yanvar ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,1 faiz artaraq, milli valyuta ekvivalentində 31946,7 milyon manat təşkil etmişdir. Ümumi kredit portfelinin 26160,5 milyon manatı və ya 81,9 faizi uzunmüddətli kreditlərin payına düşmüşdür.

Kreditlərin 94,1 faizi banklar, 5,9 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilmişdir.

Ödəmə vaxtı keçmiş kreditlərin məbləği il ərzində 16,8 faiz artaraq 524,5 milyon manat olmuş və ümumi kredit portfelinin 1,6 faizini təşkil etmişdir.

Cədvəl 54

**İqtisadiyyata kredit qoyuluşu**

| | 2026-cı il yanvarın 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Kredit qoyuluşları – cəmi** | 31946,7 | 109,1 |
| o cümlədən: | | |
| qısamüddətli | 5786,2 | 117,7 |
| uzunmüddətli | 26160,5 | 107,3 |
| Ödəmə vaxtı keçmiş kreditlər | 524,5 | 116,8 |
| Kreditlərin ümumi həcmində vaxtı keçmiş kreditlərin xüsusi çəkisi, %-lə | 1,6 | x |

Qrafik 21


İqtisadiyyata kredit qoyuluşu, milyard manat
35.0
30.0
25.0
20.0
15.0
10.0
5.0
0.0
29,3
29,3
29,4
29,7
29,9
30,2
30,2
30,3
30,5
31,0
31,2
31,5
31,9
01.01.2025
01.02.2025
01.03.2025
01.04.2025
01.05.2025
01.06.2025
01.07.2025
01.08.2025
01.09.2025
01.10.2025
01.11.2025
01.12.2025
01.01.2026
Uzunmüddətli
Qısamüddətli

## Qiymətli kağızlar bazarı

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təqdim olunmuş məlumatlara görə 2025-ci ildə ölkədə 11678,0 milyon manat dəyərində dövlət istiqrazları, 2789,1 milyon manat dəyərində səhmlər, 2532,5 milyon manat dəyərində Mərkəzi Bankın notları, 1378,5 milyon manat dəyərində korporativ istiqrazları dövlət qeydiyyatına alınmışdır.

Bu dövr ərzində Bakı Fond Birjasında keçirilmiş hərraclarda 4821,7 milyon manatlıq dövlət istiqrazları, 1536,3 milyon manatlıq korporativ istiqrazları, 1350,7 milyon manatlıq Mərkəzi Bankın notları və 328,2 milyon manatlıq səhmlər yerləşdirilmişdir.

2025-ci ildə nominal dəyəri 4466,5 milyon manat olan dövlət istiqrazları, 1115,6 milyon manatlıq korporativ istiqrazları, 153,1 milyon manatlıq səhmlər və 43,2 milyon manatlıq Mərkəzi Bankın notları tədavüldə olmuşdur.

Cədvəl 55

### Qiymətli kağızların emissiyası

| | 2025-ci ildə, milyon manat | 2024-cü ildə, milyon manat |
|---|---|---|
| Səhmlər | 2789,1 | 1576,6 |
| Mərkəzi Bankın notları | 2532,5 | 2708,0 |
| Dövlət istiqrazları | 11678,0 | 8500,0 |
| Korporativ istiqrazlar | 1378,5 | 2329,8 |

## Məşğulluq və işsizlik

2026-cı il fevralın 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 5384,9 min nəfər olmuş, onlardan 5105,6 min nəfərini məşğul əhali təşkil etmişdir.

Cari il yanvarın 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1808,0 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 865,8 min nəfər, qeyri-dövlət sektorunda isə 942,2 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft-qaz sektorunda 30,5 min nəfər, qeyri neft-qaz sektorunda isə 1777,5 min nəfər çalışmışdır.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,8 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,7 faizi emal sənayesində, 6,6 faizi tikintidə, 2,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1,8 faizi mədənçıxarma sənayesində, 1,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olmuşdur.

Xidmət sahəsində işləyənlərin 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,1 faizi təhsil, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,2 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 3,7 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 2,8 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 2,4 faizi maliyyə və sığorta fəaliyyəti, 1,9 faizi informasiya və rabitə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 1,0 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində çalışmışlar.

Cədvəl 56

**2026-cı il yanvar ayının 1-i vəziyyətinə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə muzdla çalışan işçilərin sayı**
(min nəfər)

| İqtisadi fəaliyyət növləri | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| **Ölkə üzrə – cəmi** | **1 808,0** | **865,8** | **942,2** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 42,6 | 8,0 | 34,6 |
| Mədənçıxarma sənayesi | 31,9 | 10,3 | 21,6 |
| Emal sənayesi | 139,9 | 17,7 | 122,2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 29,9 | 29,2 | 0,7 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 48,3 | 44,8 | 3,5 |
| Tikinti | 119,4 | 23,6 | 95,8 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 336,0 | 3,3 | 332,7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 80,0 | 46,9 | 33,1 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 83,3 | 1,9 | 81,4 |
| İnformasiya və rabitə | 34,5 | 13,1 | 21,4 |
| Maliyyə və sığorta fəaliyyəti | 42,7 | 8,0 | 34,7 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 18,4 | 3,9 | 14,5 |
| Peşə, elmi və texniki fəaliyyət | 70,9 | 31,5 | 39,4 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 66,4 | 37,6 | 28,8 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 112,4 | 108,0 | 4,4 |
| Təhsil | 326,6 | 306,8 | 19,8 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 153,8 | 122,0 | 31,8 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 51,0 | 45,0 | 6,0 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 20,0 | 4,2 | 15,8 |

2025-ci ilin sonuna ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş və müddəti uzadılmış iş icazələrindən qüvvədə olanlara malik olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 7990 nəfər olmuşdur. Onlardan 34,3 faizi tikintidə, 10,0 faizi mədənçıxarma sənayesində, 8,9 faizi emal sənayesində, 7,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 5,7 faizi təhsil, 5,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri və 27,9 faizi digər sahələrdə məşğul olmaq üçün iş icazələrinə malik olmuşdur.

2025-ci ilin ilkin məlumatlara əsasən bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 149,5 saat təşkil etmişdir.

Cədvəl 57

**2025-ci ildə iqtisadi fəaliyyət növləri üzrə bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı**

| İqtisadi fəaliyyət növləri | İş saatlarının miqdarı |
|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 151,5 |
| Mədənçıxarma sənayesi | 147,3 |
| Emal sənayesi | 148,4 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 153,4 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 155,1 |
| Tikinti | 155,3 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 156,1 |
| Nəqliyyat və anbar təsərrüfatı | 144,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 154,5 |
| İnformasiya və rabitə | 147,9 |
| Maliyyə və sığorta fəaliyyəti | 153,4 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 144,3 |
| Peşə, elmi və texniki fəaliyyət | 143,9 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 151,9 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 156,6 |
| Təhsil | 141,4 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 143,2 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 151,7 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 142,1 |

2026-cı il fevral ayının 1-i vəziyyətinə Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 245,6 min nəfər olmuş, onların 51,9 faizini qadınlar təşkil etmişdir. İşsizlikdən sığorta ödənişinin orta aylıq məbləği 446,6 manat olmuşdur.

## Yeni iş yerləri

2025-ci il ərzində ölkədə 102,5 min yeni iş yerləri açılmışdır. Bu dövrdə yaradılmış iş yerlərinin 91,1 faizi qeyri-dövlət sektorunda açılmışdır. Yeni açılmış iş yerlərinin 76,5 faizi Bakı şəhərinin, 0,7 faizi Naxçıvan Muxtar Respublikasının, 22,8 faizi digər regionların, o cümlədən 6,6 faizi Abşeron-Xızı, 2,7 faizi Şəki-Zaqatala, 2,5 faizi Quba-Xaçmaz, 2,3 faizi Qarabağ, 2,1 faizi Gəncə-Daşkəsən, 1,7 faizi Şirvan-Salyan, 1,0 faizi Lənkəran-Astara, 1,0 faizi Mərkəzi Aran, 0,8 faizi Qazax-Tovuz, 0,8 faizi Şərqi Zəngəzur, 0,7 faizi Dağlıq Şirvan, 0,6 faizi isə Mil-Muğan iqtisadi rayonlarının payına düşmüşdür.

Yeni açılmış iş yerlərinin 9,3 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 89,7 faizi mövcud müəssisə və təşkilatlarda, 0,3 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,7 faizi isə digər tədbirlər üzrə yaradılmışdır.

Bununla yanaşı, 2025-ci il ərzində ölkədə 13,0 min iş yeri bağlanmışdır. Bu dövrdə bağlanmış iş yerlərinin 44,5 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. İş yerlərinin 21,6 faizi müəssisə və təşkilatların fəaliyyətlərinin dayandırılması 78,4 faizi isə fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlar ilə əlaqədar bağlanmışdır.

Qrafik 22

**2025-ci il ərzində**

**yeni açılmış iş yerlərinin strukturu (faizlə)**




Hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin 25,2 faizi tikinti, 15,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 11,7 faizi emal sənayesi, 7,7 faizi peşə, elmi və texniki fəaliyyət, 7,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 4,9 faizi təhsil, 4,5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 3,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 3,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi informasiya və rabitə, 9,9 faizi isə digər iqtisadi fəaliyyət növləri üzrə açılmışdır.

Qrafik 23

**2025-ci il ərzində hüquqi şəxslər tərəfindən yaradılmış iş yerlərinin iqtisadi fəaliyyət növlərinə görə bölgüsü, (faizlə)**




| | |
|---|---|
| A | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq |
| B | Mədənçıxarma sənayesi |
| C | Emal sənayesi |
| D | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı |
| E | Su təchizatı, tullantıların təmizlənməsi və emalı |
| F | Tikinti |
| G | Ticarət; nəqliyyat vasitələrinin təmiri |
| H | Nəqliyyat və anbar təsərrüfatı |
| I | Turistlərin yerləşdirilməsi və ictimai iaşə |
| J | İnformasiya və rabitə |
| K | Maliyyə və sığorta fəaliyyəti |
| L | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar |
| M | Peşə, elmi və texniki fəaliyyət |
| N | İnzibati və yardımçı xidmətlərin göstərilməsi |
| O | Dövlət idarəetməsi və müdafiə; sosial təminat |
| P | Təhsil |
| Q | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi |
| R | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət |
| S | Digər sahələrdə xidmətlərin göstərilməsi |
| T | Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət |
| U | Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti |

# Dövlət büdcəsi

2025-ci ildə dövlət büdcəsinin gəlirləri 39184,6 milyon manat, xərcləri 38604,6 milyon manat təşkil etmiş, büdcənin icrasında yaranmış 580,0 milyon manatlıq profisit ümumi daxili məhsulun 0,4 faizinə bərabər olmuşdur.

Cədvəl 58

**Dövlət büdcəsinin gəlirləri**

| | 2025-ci il, milyon manat | yekuna görə faizlə | ÜDM-də payı, faizlə |
|---|---|---|---|
| **Gəlirlər – cəmi** | **39184,6** | **100,0** | **30,3** |
| o cümlədən: | | | |
| Fiziki şəxslərin gəlir vergisi | 2021,5 | 5,2 | 1,6 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 6694,6 | 17,1 | 5,2 |
| Torpaq vergisi | 47,3 | 0,1 | 0,04 |
| Əmlak vergisi | 355,7 | 0,9 | 0,3 |
| Əlavə dəyər vergisi | 8944,8 | 22,8 | 6,9 |
| Sadələşdirilmiş vergi | 415,9 | 1,1 | 0,3 |
| Aksiz | 1696,9 | 4,3 | 1,3 |
| Yol vergisi | 132,2 | 0,3 | 0,1 |
| Mədən vergisi | 148,1 | 0,4 | 0,1 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 1861,6 | 4,8 | 1,4 |
| Digər daxilolmalar | 16866,0 | 43,0 | 13,1 |

Daxilolmaların 22,8 faizi əlavə dəyər vergisi, 17,1 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergisi, 5,2 faizi fiziki şəxslərin gəlir vergisi, 4,8 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilər, 4,3 faizi aksizlər, 1,1 faizi sadələşdirilmiş vergi, 1,7 faizi vergilərin digər növləri, 43,0 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilmişdir.

Cədvəl 59

## Dövlət büdcəsinin xərcləri

| | 2025-ci il, milyon manat | yekuna görə faizlə | ÜDM-də payı, faizlə |
|---|---|---|---|
| **Xərclər – cəmi** | **38604,6** | **100,0** | **29,9** |
| o cümlədən:<br>Ümumi dövlət xidmətləri | 4456,2 | 11,5 | 3,4 |
| Müdafiə və milli təhlükəsizlik | 8068,0 | 20,9 | 6,2 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq | 2920,3 | 7,6 | 2,3 |
| Təhsil | 4619,5 | 12,0 | 3,6 |
| Səhiyyə | 1275,3 | 3,3 | 1,0 |
| Sosial müdafiə və sosial təminat | 4554,2 | 11,8 | 3,5 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 527,1 | 1,4 | 0,4 |
| Mənzil və kommunal təsərrüfatı | 322,5 | 0,8 | 0,2 |
| Kənd təsərrüfatı | 1120,9 | 2,9 | 0,9 |
| Ətraf mühitin mühafizəsi | 374,1 | 1,0 | 0,3 |
| İqtisadi fəaliyyət | 7579,7 | 19,6 | 5,9 |
| Əsas bölmələrə aid edilməyən xidmətlər | 2786,8 | 7,2 | 2,2 |

Büdcə vəsaitlərinin 20,9 faizi müdafiə və milli təhlükəsizlik tədbirlərinin, 19,6 faizi iqtisadi fəaliyyətin, 15,3 faizi təhsil və səhiyyənin, 11,8 faizi sosial müdafiə və sosial təminatın, 11,5 faizi ümumi dövlət xidmətlərinin, 20,9 faizi isə digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir.

Cədvəl 60

## Dövlət büdcəsinin aylıq və rüblük icrası

| | Dövlət büdcəsinin gəlirləri | | Dövlət büdcəsinin xərcləri | |
|---|---|---|---|---|
| | icra, milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | icra, milyon manat | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2024-cü il** | | | | |
| Yanvar | 3465,9 | 86,5 | 1723,6 | 118,2 |
| Fevral | 3045,0 | 162,8 | 3529,4 | 160,2 |
| Mart | 2723,2 | 112,9 | 3159,6 | 108,7 |
| **I rüb** | **9234,1** | **111,4** | **8412,6** | **128,1** |
| Aprel | 4025,3 | 103,9 | 2336,9 | 98,9 |
| May | 2746,4 | 152,9 | 2723,4 | 123,1 |
| İyun | 2837,0 | 186,8 | 2579,2 | 88,3 |
| **II rüb** | **9608,7** | **133,6** | **7639,5** | **101,9** |
| İyul | 3742,0 | 113,9 | 3406,3 | 95,8 |
| Avqust | 2638,6 | 158,5 | 2904,0 | 95,9 |
| Sentyabr | 2513,6 | 152,8 | 2811,8 | 109,6 |
| **III rüb** | **8894,2** | **134,8** | **9122,2** | **99,7** |
| Oktyabr | 3805,3 | 87,8 | 2933,9 | 85,9 |
| Noyabr | 2513,5 | 77,8 | 2929,9 | 116,0 |
| Dekabr | 3106,0 | 55,5 | 6675,6 | 91,4 |
| **IV rüb** | **9424,8** | **71,6** | **12539,4** | **94,7** |
| **2025-ci il** | | | | |
| Yanvar | 4051,4 | 116,9 | 2339,6 | 135,7 |
| Fevral | 2686,0 | 88,2 | 3026,4 | 85,7 |
| Mart | 2995,6 | 110,0 | 2749,0 | 87,0 |
| **I rüb** | **9733,0** | **105,4** | **8115,0** | **96,5** |
| Aprel | 4231,8 | 105,1 | 2846,9 | 121,8 |
| May | 3173,2 | 115,5 | 2730,2 | 100,2 |
| Iyun | 2665,8 | 94,0 | 3403,5 | 132,0 |
| **II rüb** | **10070,8** | **104,8** | **8980,6** | **117,6** |
| İyul | 3677,1 | 98,3 | 2849,0 | 83,6 |
| Avqust | 2878,5 | 109,1 | 2363,4 | 81,4 |
| Sentyabr | 2783,0 | 110,7 | 2360,2 | 83,9 |
| **III rüb** | **9338,6** | **105,0** | **7572,6** | **83,0** |
| Oktyabr | 3749,0 | 98,5 | 3052,4 | 104,0 |
| Noyabr | 2734,0 | 108,8 | 3694,1 | 126,1 |
| Dekabr | 3559,2 | 114,6 | 7189,9 | 107,7 |
| **IV rüb** | **10042,2** | **106,6** | **13936,4** | **111,1** |

Qrafik 24

**2025-ci ildə büdcə gəlirlərinin strukturu,** faizlə



Qrafik 25

**2025-ci ildə büdcə xərclərinin strukturu, faizlə**




Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən 2026-cı ilin yanvar ayında dövlət büdcəsinin gəlirləri 3707,3 milyon manat, xərcləri 1437,6 milyon manat təşkil etmiş, büdcənin icrasında 2269,7 milyon manatlıq və ya ümumi daxili məhsulun 25,0 faizi qədər profisit yaranmışdır.

# Xarici ticarət

2025-ci ildə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 180 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 128 ölkəyə məhsul ixrac olunmuş, 173 ölkədən idxal olunmuşdur.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2025-ci ildə xarici ticarət dövriyyəsi 48905,8 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 24526,1 milyon dollar, idxalın dəyəri 24379,7 milyon dollar təşkil etmiş, nəticədə 146,4 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır.

2024-cü illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 3,2 faiz artmış, real ifadədə isə 8,6 faiz azalmışdır. İdxal real ifadədə 8,5 faiz, ixrac isə 8,7 faiz azalmışdır.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən xarici ticarət dövriyyəsinin 87,5 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, İsveçrə, ABŞ, Almaniya, Birləşmiş Krallıq, Avstraliya, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Çexiya, Özbəkistan, Rumıniya, Xorvatiya, Qazaxıstan, İran, Ukrayna, Portuqaliya, Belarus, Fransa və Hindistan ilə aparılmış ticarət əməliyyatlarının payına düşmüşdür.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 19,6 faizi Çinin, 15,3 faizi Rusiyanın, 9,6 faizi Türkiyənin, 6,1 faizi ABŞ-ın, 5,3 faizi İsveçrənin, 3,7 faizi Avstraliyanın, 3,4 faizi Almaniyanın, 3,3 faizi Birləşmiş Krallığın, 2,9 faizi Özbəkistanın, 2,6 faizi İranın, 2,4 faizi Qazaxıstanın, 2,1 faizi İtaliyanın, hər biri 1,4 faiz olmaqla Belarus və Yaponiyanın, hər biri 1,3 faiz olmaqla Koreya, Braziliya və Meksikanın, hər biri 1,2 faiz olmaqla Kanada, Ukrayna və Cənubi Afrika Respublikasının, 1,1 faizi Fransanın, 0,9 faizi Hindistanın, 11,4 faizi isə digər ölkələrin payına düşmüşdür.

Qrafik 26

**2025-ci ildə idxalda daha çox paya malik olan ölkələr üzrə idxalın dəyəri** (milyon ABŞ dolları)




İdxalda qiymətli metalların, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, nəqliyyat vasitələrinin, kimya sənayesi məhsullarının, mineral məhsulların, hazır ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, bitki mənşəli məhsulların, tekstil materialları və məmulatlarının, plastmas və ondan hazırlanan məmulatların dəyəri üstünlük təşkil etmişdir.

2024-cü illə müqayisədə 2025-ci ildə mühüm məhsul növlərindən xam şəkər idxalı 24,2 faiz, unlu qənnadı məmulatları – 0,3 faiz, mal əti – 12,9 faiz, təzə tərəvəz – 29,0 faiz, siqaretlər – 3,0 dəfə, minik avtomobilləri – 38,1 faiz, avtobuslar – 2,2 dəfə, mineral gübrələr – 6,8 faiz, polietilen – 20,7 faiz, məişət kondisionerləri – 10,3 faiz, polipropilen – 3,1 faiz, qara metallardan künclüklər – 5,9 faiz, məişət soyuducuları – 10,3 faiz artmış, buğda idxalı isə 1,9 faiz, bitki yağları – 18,5 faiz, kərə yağı, digər süd yağları və pastaları – 15,9 faiz, təzə meyvə – 13,1 faiz, şokolad və şokolad məhsulları – 4,2 faiz, çay – 6,4 faiz, kartof – 5,6 faiz, quş əti və onun əlavə məhsulları – 31,6 faiz, dərman vasitələri – 14,9 faiz, polad prokatı – 3,2 faiz, qara

metallardan borular – 7,5 faiz, hesablama maşınları, blok və qurğuları – 9,1 faiz, ayaqqabılar – 2,2 faiz, rezin şinlər – 5,7 faiz, yük avtomobilləri – 3,2 faiz, sintetik yuyucu vasitələr – 7,3 faiz, qara metallardan çubuqlar – 18,0 faiz, paltaryuyan maşınlar – 6,7 faiz, sement – 19,7 faiz azalmışdır.

Cədvəl 61

## 2025-ci ildə idxal olunan mühüm növ məhsullar

| Malların adı | 2025-ci ildə | | 2024-cü ilə nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min ABŞ dolları) | Miqdarı | məbləği |
| İribuynuzlu heyvan əti, ton | 13731,9 | 57130,1 | 112,9 | 117,3 |
| Quş əti və onun əlavə məhsulları, ton | 28564,5 | 47904,7 | 68,4 | 68,3 |
| Kərə yağı, digər süd yağları və pastaları, ton | 24917,5 | 172637,2 | 84,1 | 99,4 |
| Kartof, ton | 140820,0 | 54578,8 | 94,4 | 128,0 |
| Təzə tərəvəz, ton | 57236,2 | 32848,1 | 129,0 | 130,0 |
| Təzə meyvə, ton | 135323,1 | 172534,1 | 86,9 | 100,5 |
| Çay, ton | 13471,1 | 82952,1 | 93,6 | 108,5 |
| Buğda, ton | 1267322,4 | 275626,2 | 98,1 | 98,5 |
| Bitki yağları, ton | 127838,0 | 184832,3 | 81,5 | 98,8 |
| Xam şəkər, ton | 340032,7 | 176548,2 | 124,2 | 109,9 |
| Şokolad və şokolad məhsulları, ton | 32927,6 | 148539,0 | 95,8 | 115,4 |
| Unlu qənnadı məmulatları, ton | 50510,7 | 142075,6 | 100,3 | 107,9 |
| Siqaretlər, milyon ədəd | 224,7 | 5641,5 | 3,0 d. | 2,6 d. |
| Sement, ton | 16568,0 | 3682,4 | 80,3 | 89,6 |
| Dərman vasitələri, ton | 16291,6 | 457970,9 | 85,1 | 102,4 |
| Mineral gübrələr, ton | 171955,5 | 85430,3 | 106,8 | 121,9 |
| Sintetik yuyucu vasitələr, ton | 93147,8 | 98217,4 | 92,7 | 96,4 |
| Polietilen, ton | 68104,3 | 82598,4 | 120,7 | 121,5 |
| Polipropilen, ton | 23285,6 | 30350,2 | 103,1 | 106,1 |

...ardı

| Malların adı | 2025-ci ildə | | 2024-cü ilə nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | miqdarı | məbləği (min ABŞ dolları) | Miqdarı | məbləği |
| Rezin şinlər, ədəd | 2328423 | 103511,2 | 94,3 | 92,8 |
| Ayaqqabılar, min cüt | 37585,8 | 141695,0 | 97,8 | 108,7 |
| Polad prokatı, ton | 367947,7 | 318543,1 | 96,8 | 99,9 |
| Qara metallardan çubuqlar, ton | 103016,5 | 70196,7 | 82,0 | 78,6 |
| Qara metallardan künclüklər, ton | 30398,7 | 26997,0 | 105,9 | 106,6 |
| Qara metallardan borular, ton | 150717,7 | 229518,9 | 92,5 | 88,3 |
| Məişət kondisionerləri, ədəd | 310594 | 77926,2 | 110,3 | 104,5 |
| Məişət soyuducuları, ədəd | 42042 | 11319,1 | 110,3 | 87,3 |
| Paltaryuyan maşınlar, ədəd | 227989 | 50851,4 | 93,3 | 90,0 |
| Hesablama maşınları, blok və qurğuları, ədəd | 746051 | 175165,5 | 90,9 | 77,8 |
| Minik avtomobilləri, ədəd | 113840 | 2142022,8 | 138,1 | 136,7 |
| Avtobuslar, ədəd | 877 | 102186,0 | 2,2 d. | 150,1 |
| Yük avtomobilləri, ədəd | 8163 | 99108,1 | 96,8 | 70,3 |
| Oturacaq, ofis, mətbəx, yataq və digər mebellər, ədəd | 1263665 | 91203,6 | 100,0 | 82,3 |

2025-ci ildə ölkəyə 113840 ədəd minik avtomobili, 8163 ədəd yük avtomobili, 877 ədəd avtobus idxal olunmuşdur.

İdxal olunan malların 46,4 faizini avtomobil, 33,2 faizini hava, 9,8 faizini dəniz, 8,9 faizini dəmir yolu, 1,5 faizini digər daşınma vasitələri ilə gətirilmiş, 0,2 faizini isə boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilmiş məhsulların dəyəri təşkil etmişdir.

İxracın 45,3 faizini İtaliyaya, 13,5 faizini Türkiyəyə, 4,7 faizini Rusiyaya, 3,3 faizini Yunanıstana, 3,2 faizini Bolqarıstana, 3,0 faizini Çexiyaya, 2,8 faizini Gürcüstana, 2,7 faizini Xorvatiyaya, 2,5 faizini Rumıniyaya, 2,2 faizini Almaniyaya, 1,9 faizini İsveçrəyə, 1,7 faizini Portuqaliyaya, 1,4 faizini Birləşmiş Krallığa, 1,2 faizini İrlandiyaya, hər biri 0,9 faiz olmaqla Tunis və Ukraynaya, 0,8 faizini Niderlanda, 0,7

faizini Hindistana, 0,6 faizini Fransaya, hər biri 0,5 faiz olmaqla Suriya, Serbiya, İndoneziya, Birləşmiş Ərəb Əmirlikləri və Əfqanıstana, 4,2 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Qrafik 27

**2025-ci ildə ixracda daha çox paya malik olan ölkələr üzrə ixracın dəyəri** (milyon ABŞ dolları)




2025-ci ildə qeyri neft-qaz məhsullarının ixracı 3628,2 milyon dollar təşkil etmiş və 2024-cü ilə nisbətən faktiki qiymətlərlə 8,1 faiz artmış, real ifadədə isə 18,1 faiz azalmışdır. Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya (32,4 faiz), Türkiyəyə (16,5 faiz), Gürcüstana (9,6 faiz), İsveçrəyə (9,6 faiz), Ukraynaya (5,5 faiz), Birləşmiş Ərəb Əmirliklərinə (3,1 faiz), Qazaxıstana (2,6 faiz), Belarusa (2,2 faiz), Özbəkistana (2,1 faiz), Türkmənistana (1,7 faiz), ABŞ-a (1,7 faiz), Almaniyaya (1,3 faiz), İtaliyaya (1,2 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsullarının, meyvə və tərəvəzlərin, plastmas və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, alüminium və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin, qara metallar və onlardan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, şəkərin, bitki yağlarının payı üstünlük təşkil etmişdir.

2025-ci ildə 2024-cü illə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 21,4 faiz, təzə tərəvəz – 18,0 faiz, şəkər – 67,6 faiz, siqaretlər – 38,4 faiz, kartof – 47,8 faiz, bitki yağları – 25,0 faiz, polipropilen – 0,8 faiz, emal olunmamış alüminium – 87,0 faiz, polietilen – 12,7 faiz, sement klinkerləri – 11,5 faiz, pambıq ipliyi – 30,5 faiz artmış, tütün ixracı isə 30,9 faiz, meyvə və tərəvəz şirələri – 1,2 faiz, meyvə və tərəvəz konservləri – 16,4 faiz, çay – 2,9 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar – 34,3 faiz, təbii üzüm şərabları və üzüm suslosu – 14,8 faiz, mineral gübrələr – 3,8 faiz, pambıq lifi – 8,0 faiz, elektrik enerjisi – 29,8 faiz, qara metallardan borular – 11,3 faiz, qara metallardan çubuqlar – 36,1 faiz, bentonit gili – 15,1 faiz azalmışdır.

2025-ci ildə ixracın 83,9 faizini boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilmiş, 10,1 faizini avtomobil, 3,6 faizini dəmir yolu, 1,7 faizini hava, 0,7 faizini isə dəniz nəqliyyatı ilə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.

Cədvəl 62

## 2025-ci ildə ixrac olunan mühüm növ məhsullar

| Malların adı | 2025-ci ildə | | 2024-cü ilə nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | Miqdarı | məbləği (min ABŞ dolları) | miqdarı | məbləği |
| Təzə tərəvəz, ton | 212544,6 | 208663,0 | 118,0 | 110,2 |
| Təzə meyvə, ton | 539914,4 | 646824,1 | 121,4 | 133,4 |
| Kartof, ton | 71430,2 | 28387,7 | 147,8 | 138,4 |
| Çay, ton | 725,2 | 6618,0 | 97,1 | 99,8 |
| Bitki yağları, ton | 12426,5 | 18388,2 | 125,0 | 112,6 |
| Marqarin, qida üçün yararlı digər qarışıqlar, ton | 3219,2 | 6570,9 | 65,7 | 76,5 |
| Şəkər, ton | 85162,4 | 60548,2 | 167,6 | 157,4 |
| Meyvə və tərəvəz konservləri, ton | 9637,1 | 17747,7 | 83,6 | 98,3 |
| Meyvə və tərəvəz şirələri, ton | 13922,0 | 19935,6 | 98,8 | 104,6 |
| Təbii üzüm şərabları və üzüm suslosu, min dkl | 155,2 | 4483,6 | 85,2 | 82,4 |
| Siqaretlər, milyon ədəd | 2959,4 | 46635,4 | 138,4 | 138,7 |
| Tütün, ton | 5148,0 | 20571,9 | 69,1 | 90,0 |
| Bentonit gili, ton | 191738,8 | 15223,6 | 84,9 | 85,2 |
| Sement klinkerləri, ton | 897673,6 | 54738,7 | 111,5 | 110,2 |
| Mineral gübrələr, ton | 543583,2 | 170832,8 | 96,2 | 135,3 |
| Xam neft, min ton | 23381,3 | 12091147,5 | 99,1 | 83,7 |
| Xam neft, min ton (SOCAR və ABƏŞ-in məlumatlarına əsasən) | 23210,3 | 11355117,8 | 95,7 | 80,5 |
| Reaktiv mühərriklər üçün və digər məqsədlər üçün kerosin, ton | 26971,2 | 26449,0 | 41,6 | 38,9 |
| Ağır destilyatlar və ya digər məqsədlər üçün qazoyllar, ton | 603773,2 | 336139,4 | 156,5 | 174,7 |
| Təbii qaz, milyon kub metr | 25187,3 | 8821258,8 | 97,7 | 104,9 |
| Təbii qaz, milyon kub metr (SOCAR və ABƏŞ-in məlumatlarına əsasən) | 26409,7 | 9040545,7 | 101,2 | 106,1 |

…ardı

| Malların adı | 2025-ci ildə | | 2024-cü ilə nisbətən, faizlə | |
|---|---|---|---|---|
| | Miqdarı | məbləği (min ABŞ dolları) | miqdarı | məbləği |
| Elektrik enerjisi, min kVt.s | 1230524,8 | 70083,9 | 70,2 | 74,4 |
| Neft koksu, ton | 217244,5 | 68744,4 | 103,4 | 3,8 d. |
| Polietilen, ton | 130111,1 | 141553,4 | 112,7 | 109,3 |
| Polipropilen, ton | 127868,6 | 154152,3 | 100,8 | 104,2 |
| Pambıq lifi, ton | 109294,6 | 159524,0 | 92,0 | 89,8 |
| Pambıq ipliyi, ton | 15068,1 | 34025,0 | 130,5 | 119,2 |
| Qara metallardan borular, ton | 19574,8 | 24341,4 | 88,7 | 95,0 |
| Qara metallardan çubuqlar, ton | 36299,7 | 20878,3 | 63,9 | 57,3 |
| Emal olunmamış alüminium, ton | 54041,9 | 144268,5 | 187,0 | 2,0 d. |

Qrafik 28

**2025-ci ildə xarici ticarət dövriyyəsində daha çox paya malik olan ölkələr üzrə ticarət dövriyyəsi**

(milyon ABŞ dolları)



Cədvəl 63

## 2025-ci ildə Azərbaycanın tərəfdaş ölkələrlə xarici ticarət göstəriciləri*

min ABŞ dolları

| Ölkələr | Dövriyyə | İdxal | İxrac |
|---|---|---|---|
| **Cəmi** | **49422579,9** | **24379730,3** | **25042849,6** |
| o cümlədən:<br>İtaliya | 11860412,6 | 518082,2 | 11342330,4 |
| Türkiyə | 5720888,9 | 2343073,8 | 3377815,1 |
| Rusiya | 4920211,1 | 3736477,4 | 1183733,7 |
| Çin | 4874226,0 | 4789863,8 | 84362,2 |
| İsveçrə | 1773259,2 | 1292912,3 | 480346,9 |
| Amerika Birləşmiş Ştatları | 1556646,5 | 1494874,1 | 61772,4 |
| Almaniya | 1376176,0 | 826102,2 | 550073,8 |
| Birləşmiş Krallıq | 1140870,1 | 797841,1 | 343029,0 |
| Avstraliya | 895098,4 | 894643,8 | 454,6 |
| Gürcüstan | 881334,4 | 168665,8 | 712668,6 |
| Yunanıstan | 872870,1 | 39407,7 | 833462,4 |
| Bolqarıstan | 839583,2 | 27698,3 | 811884,9 |
| Çexiya | 814729,9 | 69916,7 | 744813,2 |
| Özbəkistan | 795159,7 | 719010,3 | 76149,4 |
| Rumıniya | 691766,6 | 63083,1 | 628683,5 |
| Xorvatiya | 671932,2 | 5151,8 | 666780,4 |
| Qazaxıstan | 670620,2 | 575674,8 | 94945,4 |
| İran | 644097,1 | 624071,6 | 20025,5 |
| Ukrayna | 510673,6 | 282737,0 | 227936,6 |
| Portuqaliya | 444621,6 | 13842,6 | 430779,0 |
| Belarus | 428168,1 | 349077,1 | 79091,0 |
| Fransa | 415068,4 | 259923,1 | 155145,3 |
| Hindistan | 400619,4 | 225681,9 | 174937,5 |
| Yaponiya | 360248,8 | 345043,2 | 15205,6 |
| İrlandiya | 347767,9 | 58064,1 | 289703,8 |
| Digər ölkələr | 5515529,9 | 3858810,5 | 1656719,4 |

*Gömrük məlumatı

# Əhalinin gəlirləri

İlkin məlumatlara görə, 2026-cı ilin yanvar ayında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,6 faiz artaraq 6478,2 milyon manat və ya hər nəfərə orta hesabla 631,2 manat olmuşdur.

Əhalinin sərəncamında qalan gəlirləri 5603,3 milyon manat təşkil etmişdir.

Cədvəl 64

**Əhalinin gəlirlərinin əsas göstəriciləri**

| | 2026-cı il yanvar ayında | 2025-ci il yanvar ayında*) | Əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə |
|---|---|---|---|
| Əhalinin nominal gəlirləri, milyon manat | 6478,2 | 5967,8 | 108,6 |
| hər nəfərə, manat | 631,2 | 583,6 | 108,2 |
| Sərəncamda qalan gəlirlər, milyon manat | 5603,3 | 5159,4 | 108,6 |
| hər nəfərə, manat | 545,9 | 504,5 | 108,2 |

*) 2025-ci ilin yanvar ayının göstəriciləri dövr üzrə yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

# Əməkhaqqı

2025-ci ilin ilkin məlumatlarına əsasən ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilə nisbətən 9,3 faiz artaraq 1102,9 manat təşkil etmişdir. Əməkhaqqı neft-qaz sektorunda 3938,6 manat, qeyri neft-qaz sektorunda 1050,7 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 1080,8 manat, özəl müəssisələrdə isə 1124,4 manat olmuşdur.

Cədvəl 65

**2025-ci ildə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı** (manat)

| İqtisadi fəaliyyət növləri | Cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | dövlət | qeyri-dövlət |
| **Ölkə üzrə – cəmi** | **1 102,9** | **1 080,8** | **1 124,4** |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 693,7 | 781,5 | 672,1 |
| Mədənçıxarma sənayesi | 3 734,9 | 2 558,3 | 4 329,7 |
| Emal sənayesi | 1 002,8 | 1 640,4 | 913,7 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 1 132,8 | 1 124,0 | 1 564,8 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 766,8 | 724,4 | 1 316,3 |
| Tikinti | 1 180,0 | 1 163,1 | 1 184,4 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 747,6 | 1 003,8 | 744,9 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1 558,6 | 1 642,7 | 1 445,8 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 783,1 | 1 791,7 | 745,2 |
| İnformasiya və rabitə | 1 879,9 | 1 632,7 | 2 043,6 |
| Maliyyə və sığorta fəaliyyəti | 2 891,6 | 3 814,2 | 2 690,0 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 1 180,6 | 1 155,8 | 1 188,7 |
| Peşə, elmi və texniki fəaliyyət | 1 836,8 | 1 327,7 | 2 263,8 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 738,3 | 662,1 | 856,8 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 1 517,5 | 1 551,1 | 635,3 |
| Təhsil | 810,6 | 801,3 | 969,5 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 939,2 | 988,0 | 745,8 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 876,7 | 809,3 | 1 366,6 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 1 309,3 | 1 888,9 | 1 150,5 |

Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.

## Əhalinin əmanətləri və manatın məzənnəsi

Mərkəzi Bankın məlumatına görə əhalinin banklardakı əmanətlərinin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 14,4 faiz artaraq 2026-cı il yanvar ayının 1-nə milli valyuta ekvivalentində 16772,4 milyon manat təşkil etmişdir. Əmanətlərin 69,2 faizi milli, 30,8 faizi xarici valyutada qoyulmuş, milli valyutada qoyulmuş əmanətlərin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 19,2 faiz, xarici valyutada olan əmanətlərin məbləği isə 4,8 faiz artmışdır.

Cədvəl 66

**Əhalinin əmanətləri**

| | 2026-cı il yanvarın 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| Əhalinin əmanətləri – cəmi | 16772,4 | 114,4 |
| o cümlədən: milli valyutada | 11602,8 | 119,2 |
| xarici valyutada | 5169,6 | 104,8 |

Qrafik 29




Yanvar ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 manata, 1 Avroya 2,0 manata, 100 Türk lirəsinə 3,94 manata, 100 Rus rubluna 2,18 manata bərabər olmuşdur.

# Hüquqpozmalar

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatlarına əsasən, 2025-ci il ərzində ölkədə 31852 cinayət hadisəsi qeydə alınmışdır ki, bu da 2024-cü ilin göstəricisindən 4,6 faiz azdır. Əhalinin hər 100 min nəfərinə hesabı ilə qeydə alınmış cinayət hadisələrinin sayı da əvvəlki dövrlə müqayisədə 16 bənd azalaraq 311 olmuşdur. Onların 58,7 faizini az ağır, 27,6 faizini böyük ictimai təhlükə törətməyən, 13,7 faizini isə ağır və xüsusilə ağır cinayətlər təşkil etmişdir.

Cinayətlərin strukturunda 13088 hadisə iqtisadi sahədə, 12022 hadisə ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə, 5590 hadisə şəxsiyyət əleyhinə, 1148 hadisə dövlət hakimiyyəti əleyhinə olan, 4-ü isə digər hüquqazidd əməllərdir.

Qrafik 30

**Qeydə alınmış cinayətlərin strukturu,** yekuna nisbətən, faizlə



Qeydə alınmış 5590 şəxsiyyət əleyhinə olan cinayətlərin 86,0 faizi həyat və sağlamlıq əleyhinə olan cinayətlərə, 6,5 faizi şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlərə, 4,4 faizi şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlərə, 2,5 faizi insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlərə, 0,6 faizi isə yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlərə aiddir.

Həyat və sağlamlıq əleyhinə olan 4806 cinayət hadisəsinin 3654-nü qəsdən sağlamlığa yüngül zərər vurma, 570-ni qəsdən sağlamlığa az ağır zərər vurma, 262-ni qəsdən sağlamlığa ağır zərər vurma, 220-ni qəsdən adam öldürmə və ya adam öldürməyə cəhd, 23-nü əzab vermə, 11-ni ehtiyatsızlıqdan adam öldürmə, qalanlarını isə digər cinayətlər təşkil etmişdir.

2025-ci il ərzində əcnəbilər tərəfindən və ya onların iştirakı ilə 404 cinayət hadisəsi törədilmişdir ki, bu da əvvəlki ilin göstəricisindən 16,5 faiz azdır.

2025-ci ildə əvvəlki illə müqayisədə əzab vermə 39,5 faiz, hədə-qorxu ilə tələb etmə 35,8 faiz, mənimsəmə və ya israf etmə 35,0 faiz, kibercinayətlər 27,3 faiz, Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə 16,2 faiz, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər 12,4 faiz, oğurluq 10,8 faiz, insan alveri ilə bağlı cinayətlər 9,7 faiz, dələduzluq 6,7 faiz, qəsdən sağlamlığa ağır zərər vurma 4,7 faiz azalmışdır. Bununla yanaşı, torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma 3,0 dəfə, vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma 50,4 faiz, cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma 38,2 faiz, qaçaqmalçılıq 8,4 faiz, qəsdən sağlamlığa yüngül zərər vurma isə 3,2 faiz artmışdır.

Hesabat dövründə 21031 nəfər cinayət törətmiş şəxs müəyyən edilmiş, 14953 nəfər isə cinayət məsuliyyətinə cəlb olunmuşdur. Cinayət məsuliyyətinə cəlb olunmuşların 53,1 faizi əmək qabiliyyətli yaşda olub, işləməyən və təhsil almayanlar, 23,0 faizi əvvəllər də cinayət törətmiş şəxslərdir.

Cinayət törətmiş şəxslərin arasında qadınların xüsusi çəkisi 6,4 faiz, 14-17 yaşda olan uşaqların xüsusi çəkisi isə 2,3 faiz təşkil etmişdir.

Ötən il ərzində qadınlara qarşı törədilmiş cinayətlərin sayı 3,5 faiz azalmış, yetkinlik yaşına çatmayanlara qarşı törədilmiş cinayətlərin sayı isə 21,6 faiz artmışdır.

2025-ci ildə qeydə alınmış cinayətlər nəticəsində 21195 nəfər zərərçəkənin 1413 nəfəri və ya 6,7 faizi məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkənlərdir. Həmin cinayətlər nəticəsində zərərçəkənlərin sayı əvvəlki ilin göstəricisinə nisbətən 3,9 faiz azalmışdır ki, onların da 83,2 faizini qadınlar, 1,1 faizini isə yetkinlik yaşına çatmayanlar təşkil etmişdir.

Əvvəlki illə müqayisədə bu cinayətlər nəticəsində ölənlərin sayı 22,4 faiz artaraq, 60 nəfər (onlardan 40-ı qadınlar) olmuşdur.

2025-ci ildə qeydə alınmış cinayət hadisələrinin 7763-ü və ya 24,4 faizi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar olmuşdur ki, bu da 2024-cü ilin göstəricisindən 12,4 faiz azdır. Həmin cinayətlərin 63,5 faizini satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma, 33,3 faizini eyni hərəkətləri satış məqsədilə etmə, habelə bu maddələri istehsal etmə, göndərmə, yaxud qanunsuz olaraq satma, 2,4 faizini qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə, 0,8 faizini isə güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər təşkil etmişdir.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 5657 nəfər cinayət törətmiş şəxs müyyən edilmişdir. Sözügedən cinayətlərin 2901-ni narkomanlar tərəfindən törədilmişdir ki, bu da ötən ilin göstəricisindən 21,0 faiz azdır.

Cədvəl 67

## 2025-ci ildə Azərbaycan Respublikasında cinayətkarlığın vəziyyəti

(Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatlarına əsasən)

| | 2024-cü il | 2025-ci il | 2025-ci il 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Qeydə alınmış cinayətlər** | 33379 | 31852 | 95,4 |
| o cümlədən:<br>**ictimai təhlükəlilik dərəcəsinə görə:** | | | |
| xüsusilə ağır | 626 | 602 | 96,2 |
| ağır | 4101 | 3773 | 92,0 |
| az ağır | 19833 | 18701 | 94,3 |
| böyük ictimai təhlükə törətməyən | 8819 | 8776 | 99,5 |
| qeydə alınmış cinayətlərin ümumi sayından: | | | |
| **Şəxsiyyət əleyhinə olan cinayətlər** | 5337 | 5590 | 104,7 |
| onlardan:<br>qəsdən adam öldürmə və ya adam öldürməyə cəhd | 218 | 220 | 100,9 |
| qəsdən sağlamlığa ağır zərər vurma | 275 | 262 | 95,3 |
| qəsdən sağlamlığa az ağır zərər vurma | 580 | 570 | 98,3 |
| qəsdən sağlamlığa yüngül zərər vurma | 3539 | 3654 | 103,2 |
| əzab vermə | 38 | 23 | 60,5 |
| zorlama və ya zorlamaya cəhd | 14 | 20 | 142,9 |
| **İqtisadi sahədə cinayətlər** | 13550 | 13088 | 96,6 |
| onlardan:<br>oğurluq | 4219 | 3764 | 89,2 |
| onlardan:<br>mənzillərdən | 892 | 748 | 83,9 |
| dələduzluq | 6972 | 6504 | 93,3 |
| mənimsəmə və ya israf etmə | 300 | 195 | 65,0 |
| soyğunçuluq | 130 | 132 | 101,5 |
| quldurluq | 77 | 72 | 93,5 |

…ardı

| | 2024-cü il | 2025-ci il | 2025-ci il 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər** | 13273 | 12022 | 90,6 |
| onlardan: xuliqanlıq | 583 | 603 | 103,4 |
| yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma *) | 2685 | 2543 | 94,7 |
| onlardan zərərçəkənin ölümü ilə nəticələnmişdir | 621 | 487 | 78,4 |
| **Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər** | 1184 | 1148 | 97,0 |
| rüşvət cinayətləri | 30 | 29 | 96,7 |
| **digər cinayətlər** | 35 | 4 | 11,4 |

*) Bu göstərici yalnız cinayətkarlıqla bağlı yol-nəqliyyat hadisələrini əhatə edir.

## Demoqrafik vəziyyət

2025-ci ildə ölkə üzrə əhalinin sayı 37462 nəfər və ya 0,4 faiz artaraq 2026-cı il yanvar ayının 1-i vəziyyətinə 10262351 nəfərə çatmışdır. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına görə, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən 01.02.2026-cı il tarixədək işğaldan azad edilmiş ərazilərə 27123 nəfər keçmiş məcburi köçkün geri qayıtmış, bununla da işğaldan azad edilmiş ərazilərdə yaşayan, fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı 74750 nəfər təşkil etmişdir.

Ölkə əhalisinin 54,3 faizini şəhər, 45,7 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Cari ilin əvvəlinə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 23,0 faizi Bakı şəhərində, 9,2 faizi Lənkəran-Astara, 8,6 faizi Abşeron-Xızı, 7,3 faizi Qarabağ, 7,1 faizi Mərkəzi Aran, 6,6 faizi Qazax-Tovuz, 6,1 faizi Şəki-Zaqatala, 5,8 faizi Gəncə-Daşkəsən, 5,4 faizi Quba-Xaçmaz, 5,2 faizi Mil-Muğan, 4,9 faizi Şirvan-Salyan, 3,2 faizi Dağlıq Şirvan, 3,0 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşamışdır.

Ölkə üzrə bir kvadrat kilometrə düşən əhalinin sayı 119 nəfər olmuşdur.

Cədvəl 68

### Əhalinin təbii hərəkətinin əsas göstəriciləri

| | Nəfər | | | Əhalinin hər 1000 nəfərinə | | |
|---|---|---|---|---|---|---|
| | 2025 | 2024 | artım (+), azalma (-) | 2025 | 2024 | 2025-ci il 2024-cü ilə nisbətən, faizlə |
| Təbii artım | 36041 | 43401 | -7360 | 3,6 | 4,2 | 85,7 |
| doğulanlar | 95875 | 102310 | -6435 | 9,4 | 10,0 | 94,0 |
| ölənlər | 59834 | 58909 | 925 | 5,8 | 5,8 | 100,0 |
| Nikahlar | 48546 | 49508 | -962 | 4,7 | 4,9 | 95,9 |
| Boşanmalar | 20675 | 21384 | -709 | 2,0 | 2,1 | 95,2 |

2025-ci ildə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 95875 doğulan körpə qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10,0-dan 9,4-ə düşmüşdür. Doğulan körpələrin 53,1 faizi oğlan uşaqları, 46,9 faizi isə qız uşaqları olmuşdur. Körpələrdən 3170-i əkiz, 117-si isə üçəm doğulmuşdur.

Əhalinin hər 1000 nəfərinə doğum səviyyəsi Dağlıq Şirvan (11,8), Qarabağ (11,3), Lənkəran-Astara (11,2), Şərqi Zəngəzur (11,1), Mil-Muğan (10,8), Şirvan-Salyan (10,7), Qazax-Tovuz və Mərkəzi Aran (10,6), Quba-Xaçmaz (10,5) iqtisadi rayonlarında ölkə göstəricisindən (9,4) yüksək olmuşdur.

Ötən il ölkədə 59834 ölüm halı qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici dəyişməyərək eyni səviyyədə (5,8) qalmışdır. Ölənlərin 2292 nəfəri (3,8 faizi) 0-17 yaşda, 5839 nəfəri (9,8 faizi) 18-49 yaşda, 14230 nəfəri (23,8 faizi) 50-64 yaşda, 37473 nəfəri (62,6 faizi) isə 65 və yuxarı yaşda olmuşdur.

Qrafik 31



Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən keçən il ərzində ölkədə 48546 nikaha daxilolma və 20675 boşanma halları qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,9-dan 4,7-yə, boşanmaların sayı isə 2,1-dən 2,0-a düşmüşdür.

